16 (1166) 22-28 aprel 2021-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# "AZƏRBAYCAN XALQI 101 İL BUNDAN ƏVVƏL BİZİM ƏLİMİZDƏN ALINMIŞ ZƏNGƏZURA QAYIDACAQDIR"

***Bu sözləri aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində deyib.***

**Müxbir:** Cənab Prezident, xoş gördük Sizi. Cənab Prezident, bu gün Hacıqabul rayonuna səfər etdiniz, bir sıra sosial obyektlərin açılışında iştirak etdiniz. Səfər təəssüratlarınız haqqında istərdik məlumat verəsiniz.

**Prezident İlham Əliyev:** Təəssüratlar çox müsbətdir. Hacıqabul rayonunda həyata keçirdiyimiz işlərin nəticələrini görürük. Vaxtilə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Bu proqram çərçivəsində, o cümlədən Hacıqabul rayonunda böyük işlər görülmüşdür. Bütün ölkə üzrə böyük işlər görülmüşdür. Hacıqabulda bu işlər artıq son mərhələdədir. İnfrastruktur layihələrinə gəldikdə, deyə bilərəm ki, Hacıqabulda qazlaşdırmanın səviyyəsi yüz faizə çatıbdır. Rayon tam qazlaşdırılıb. Elektrik enerjisi ilə təchizat xeyli yaxşılaşıb və bu gün artıq yeni yarımstansiyanın açılışı da bunu göstərir. Çünki tələbat artıb. İçməli su layihəsi hələ 2013-cü ildə icra edilmişdir və Hacıqabul şəhəri içməli su ilə təmin olundu. Kənd yollarının çəkilişinə gəldikdə isə, bu yolların 75 faizi yenidən çəkilib. Eyni zamanda, rayonda bir çox sosial layihələr icra edilmişdir. Xəstəxana, mədəniyyət obyektləri, 22 məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Yəni, bütün bunlar insanlar üçün gözəl şərait yaradır. İnsanların yaşayış səviyyəsi yaxşılaşıb. Biznes üçün şərait yaxşılaşıb. Bütövlükdə bu gün açılışında iştirak etdiyim obyektlər rayonun gələcək iqtisadi potensialını böyük dərəcədə gücləndirəcəkdir.

**- Cənab Prezident, bu gün Siz iki aqroparkın fəaliyyəti ilə tanış oldunuz. Bu aqroparkların fəaliyyətini necə qiymətləndirirsiniz? Qeyri-neft sektorunun inkişafında bunun rolunu necə dəyərləndirirsiniz?**

- Bu, əlbəttə ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində aparılan islahatların tərkib hissəsidir. Böyük aqroparkların yaradılmasının əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdir. Təbii ki, eyni zamanda, kiçik fermer təsərrüfatlarının inkişafı ilə bağlı praktiki işlər görülür. Bu iki istiqamət üzrə kənd təsərrüfatı inkişaf edir.

Hacıqabul rayonu əhali baxımından o qədər də böyük rayon deyil, 77 min əhalisi var. Ancaq burada iki böyük aqropark fəaliyyət göstərir və yüzlərlə yerli sakin bu aqroparklarda işlə təmin edilibdir.

Bütövlükdə əlliyə yaxın aqroparkın yaradılması nəzərdə tutulur. Onlardan bir çoxu artıq fəaliyyətdədir. Ümumi investisiya qoyuluşu iki milyard manatdan çoxdur. Əgər biz bu işləri özəl sektorla birlikdə görməsəydik, bu investisiyaları heç kim qoymazdı. Biz daxili istehsalı və qeyri-neft sektorunu stimullaşdırırıq. Mən həm "Aqro Dairy"da, həm də burada - "Azərsun" aqroparkında onları idarə edən şəxslərə tövsiyə etmişəm ki, azad olunmuş torpaqlarda, Qarabağda buna oxşar təsərrüfatlar yaradılsın və bu istiqamətdə ilkin addımlar atılmaqdadır. Bu gün Hacıqabul rayonunda, eyni zamanda, Hacıqabul Sənaye Məhəlləsinin inkişafı ilə bağlı əlavə göstərişlər verilib. Əlavə beş müəssisə yaradılacaq.

Bu müəssisələrin arasında ən böyüyü, əlbəttə ki, avtomobil zavodudur. Artıq avtomobil sənayesi Azərbaycanda inkişaf edir və biz bu sahədə bir neçə ölkə ilə bərabər çalışırıq. Növbəti mərhələdə lokallaşmanı daha da artırmaq gündəlikdə duran məsələlərdən biridir və biz buna

da nail olacağıq.

**- Cənab Prezident, işğaldan azad olunan ərazilərdə aqroparkların yaradılacağını qeyd etdiniz. Ümumiyyətlə, orada görülən işlər haqqında fikirlərinizi bilmək istərdik.**

- İndiki mərhələdə orada müxtəlif istiqamətlər üzrə işlər görülür, minalardan təmizləmə prosesi gedir. Burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir. Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir. Müharibə başa çatandan sonra mina xəritələri verilmədiyi üçün 100-dən çox ancaq mülki vətəndaş yaralanıb və həlak olub. Bu istiqamətdə işlər davam etdiriləcək. Yeni avadanlıq alınır, Minatəmizləmə Agentliyinin ştat vahidlərinin artırılması ilə bağlı Sərəncam verilib. Çalışacağıq, bütün güclərimizi maksimum səfərbər edək ki, minatəmizləmə işləri sürətlə getsin. Eyni zamanda, həm Türkiyədən, həm Rusiyadan bu sahədə kömək göstərən hərbçilər də bu işlərlə məşğuldurlar.

Bununla paralel olaraq, əsas infrastruktur layihələrinə start verildi. Azad edilmiş ərazinin elektrik təchizatı hesab edirəm ki, bu ilin sonuna qədər başa çatacaq. Həm xətlər çəkilir, həm yeni yarımstansiyalar tikilir. Şuşa şəhəri indi elektrik enerjisi ilə tam təmin edilib və hazırda Daşkəsəndən Kəlbəcərə yeni ötürücü xətlər inşa edilir. Bu, çox ağır bir işdir. Çünki bu infrastruktur layihəsi Murov dağlarından keçməlidir. Orada dağların hündürlüyü 3500 metrə çatır və hələ ki, hava şəraiti o qədər də münasib deyil, qar əriməyib.

Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər gedir. İlk növbədə, Füzuli-Şuşa yolu, Zəfər yolu, magistral yolumuz, eyni zamanda, yaxın gələcəkdə Horadiz-Zəngilan avtomobil yolunun təməli qoyulacaq. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Bərdə-Ağdam, Göygöl-Toğanalı-Kəlbəcər avtomobil yollarının tikintisi artıq başlamışdır və bununla paralel olaraq Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yolu infrastrukturu da yaradılmaqdadır. Bu yol Zəngəzur dəhlizinə gəlib çatacaq və artıq cədvəl üzrə işlər gedir. Bildiyiniz kimi, birinci pilot layihə Zəngilan rayonunda icra ediləcək - "Ağıllı kənd" layihəsi. Bu layihə üç kəndi – 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edəcək və yəqin ki, yaxın gələcəkdə bu layihənin təməli də qoyulacaq. Zəngilanda olarkən mənə bu layihə ilə bağlı məruzə edildi və indi təməlqoyma mərasimi üçün hazırlıq işləri aparılır. Ümid edirəm ki, gələn il artıq bu ilk pilot layihə icra ediləcək və beləliklə, əvvəlcə keçmiş köçkünlərin birinci qrupu öz doğma torpaqlarına qayıdacaqlar.

Bütün şəhərlərin baş planları hazırlanır. Hesab edirəm ki, bu, ilk növbədə, Ağdam şəhərini əhatə edəcək. Kəndlərin bərpasına gəldikdə, burada da biz işlərimizi mərhələlərə bölməliyik.

Bildiyiniz kimi, Füzuli Beynəlxalq Hava Limanının tikintisi sürətlə gedir və yaxın gələcəkdə Zəngilan rayonunda yeni hava limanının tikintisinə start veriləcəkdir. Üçüncü hava limanı Laçın rayonu ərazisində inşa ediləcək.

Yəni, gördüyünüz kimi, biz bütün istiqamətlər üzrə dərhal bu işlərə başlamışıq. Müharibə başa çatandan dərhal sonra bütün bu işlərə start verildi. Çox böyük həcmli bir işdir. Çünki mən demişəm, bir daha demək istəyirəm, azad edilmiş torpaqların ərazisi 4 Lüksemburqa bərabərdir. Yəni, hesab edirəm ki, bu, təsəvvür üçün, kifayət qədər aydın mənzərədir. Dörd Lüksemburq boyda ərazini biz sıfırdan tikməliyik, qurmalıyıq.

Biz, əlbəttə ki, erməni vəhşiliyini heç vaxt unutmayacağıq. Bu gün Ermənistanda böyük hay-haraya səbəb olan Hərbi Qənimətlər Parkının yaradılmasının əsas məqsədi odur ki, Azərbaycan xalqı bu vəhşiliyi heç vaxt unutmasın. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq.

Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır.

**- Cənab Prezident, Hərbi Qənimətlər Parkının açılışında Siz Azərbaycan ərazisinə atılan "İsgəndər-M" raketi barədə danışdınız və dediniz ki, bununla bağlı Rusiyadan cavab gözləyirsiniz. Bununla bağlı bir cavab verildimi?**

- Bu sözləri deyəndən sonra ertəsi gün Rusiya Müdafiə Nazirliyi Azərbaycan Müdafiə Nazirliyinin məktubuna cavab göndərmişdir. Mən bu cavabla tanış oldum. Azərbaycan xalqına hər şeyi olduğu kimi deməliyəm. Çünki bu, çox ciddi məsələdir. Bu, sıradan olan məsələ deyil. Ona görə burada hər hansı bir məxfiliyə yol vermək olmaz. Cavabda göstərilmişdir ki, Rusiya tərəfi ballistik raketlərin buraxılmasını müəyyən etməmişdir.

Bu, əslində, bizim məktubumuza olan tam cavab deyil. Çünki bizim məktubumuzda əsas sual ondan ibarət idi ki, ixrac üçün qadağan edilən və ölümcül "İsgəndər-M" raketləri Ermənistanın əlinə necə düşüb? Axı, bu, mümkün deyil. Bunun iki yolu var: ya qaçaqmalçılıq yolu ilə, ya da ki, beynəlxalq normaları, qaydaları pozmaq yolu ilə. Çünki Ermənistan ordusunda ancaq "İsgəndər-E", yəni eksport - ixrac variantı ola bilər. Onların arasında böyük fərq var. "İsgəndər-E" raketlərinin atəş məsafəsi 280 kilometrdir. "İsgəndər-M" raketləri daha uzaqmənzilli raketlərdir. Burada məsafə 500 kilometrdir. Yəni, Ermənistan ordusunda "İsgəndər-M" raketləri ola bilməzdi. Bunun ancaq iki yolu var. Başqa yolu ola bilməz. Çünki heç bir başqa ölkədə bu raketlər yoxdur. Bax, bu suala bizə cavab verilməlidir. Biz bu cavabı gözləyirik, Azərbaycan xalqı gözləyir. Biz bir çox məsələləri özümüz üçün aydın etmişik. Biz bilirik bu raketlər nə vaxt və nə üçün atılıb. Ancaq bizə rəsmi cavab verilməlidir, bu raketləri bizə atan Ermənistandan və Rusiyadan. Bu raket sistemləri ya Ermənistana verilib, yaxud da ki, qanunsuz yollarla Rusiyadan oğurlanaraq çıxarılıb. Bu suallara cavab yoxdur. Əlbəttə ki, bu, xoşagələn vəziyyət deyil. Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələri var. Rusiya sülhməramlı qüvvələri Azərbaycanın razılığı ilə bizim torpağımıza - Qarabağa, Xankəndiyə və ətraf yerlərə gətiriliblər. Biz hesab edirdik ki, bu yeni əməkdaşlıq formatı bizim əlaqələrimizi möhkəmləndirəcək. Əslində, möhkəmləndirməlidir. Ancaq "İsgəndər-M" raketlərinin Şuşa şəhərində tapılması və bu məsələ ilə bağlı bu günə qədər bizə tam cavabın verilməməsi, əlbəttə ki, Azərbaycan xalqında və Azərbaycan rəhbərliyində haqlı olaraq təəssüf və təəccüb hissi oyadır. Biz ümid edirik ki, bu məsələyə aydınlıq gətiriləcək. Strateji tərəfdaşlar arasında münasibətlər səmimi olmalıdır. Azərbaycan bütün strateji tərəfdaşlarla həmişə səmimi olub, həmişə öz sözünün üstündə durmuşdur, öz sözünü yerinə yetirmişdir. Üçtərəfli Bəyanat da Azərbaycan tərəfindən tam icra edilib.

Bir halda ki, Rusiya mətbuatında "İsgəndər-M" raketləri ilə bağlı cəfəng versiyalar irəli sürülür, bir şey də deyə bilərəm. Mən bunu, sadəcə olaraq, təsadüfi versiyalar hesab etmirəm. Çünki hətta, o versiyalarda da, - düzdür, bu, mətbu orqanlar tərəfindən irəli sürülüb,- hər halda, biz hansısa sistemli yanaşma görürük. Guya ki, Azərbaycan Türkiyə ilə birlikdə bu "İsgəndər-M" raketlərinin qalıqlarını Suriyadan gətiribdir və Şuşaya qoyubdur. Bu, bizə qarşı açıq ittihamdır. Bizi nədə ittiham edirlər, saxtakarlıqda? Bir adam deyə bilər ki, Azərbaycan nə vaxtsa saxtakarlıq edib? Yox. Biz yüzlərlə saxta faktlar ilə üzləşmişdik, riyakar faktlar ilə üzləşmişdik, vədlərin yerinə yetirilməməsi faktları ilə üzləşmişdik. Biz heç vaxt belə saxtakarlığa yol verməmişik. Biz bunu nə üçün edək? Bunun məqsədi nədir? Biz indi noyabrın 10-da imzalanmış Bəyanatın icrası ilə məşğuluq. Biz bölgədə sülhün əbədi olmasını istəyirik. Biz təhlükəsizlik tədbirlərini gücləndiririk. Nə üçün biz bu təxribatı törədək? Bizi bunda ittiham edənin gərək bir faiz vicdanı olsun. Ona görə istərdim ki, bu məsələyə aydınlıq gətirim.

O ki qaldı, qaçaqmalçılıq versiyasına. Bu, əlbəttə ki, araşdırılmalıdır. Çünki müharibə dövründə qaçaqmalçılıqla Rusiyadan Ermənistana külli miqdarda silahlar göndərilmişdir. Rusiya tərəfi ən yüksək səviyyədə və bütün səviyyələrdə, aidiyyəti qurumlar səviyyəsində bu məsələ ilə bağlı Azərbaycan tərəfindən məlumatlandırılmışdır. Hətta biz beynəlxalq aviasiya təşkilatı olan ICAO-ya rəsmi məktublar göndərmişik. O məktublarda deyilmişdir ki, biz dəqiq bilirik, - reyslərin nömrələrini də vermişdik, yazmışdıq, - bu təyyarələrlə, sərnişin təyyarələri ilə Rusiyadan Ermənistana silahlar gətirilir. Silahların növlərini də göstərmişdik. Baxmayaraq ki, müharibə dövründə dəfələrlə belə məktublar göndərilmişdir, ancaq ICAO-dan heç bir cavab gəlməmişdir. Amma biz dəqiq bilirik ki, bir erməni silah alverçisi David Qalustyan Rusiyada oturub Rusiya hərbi zavodlarından qanunsuz yollarla silahları alıb sərnişin təyyarələri ilə göndərib. O silahların pulunu Rusiyada fəaliyyət göstərən erməni oliqarxları ödəyib – Obramyan, Karapetyan. Bu, cinayətdir. Onlar buna görə cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Bu silahlar müxtəlif qaçaqmalçılıq yolları ilə Ermənistana göndərilmişdir. Biz onu da Rusiya tərəfinə bildirmişdik ki, David Qalustyan Ermənistanın keçmiş müdafiə naziri Tonoyanın biznes şərikidir. Onlar bunu, eyni zamanda, qanunsuz qazanc kimi edirdilər. Təsadüfi deyil ki, acı məğlubiyyətdən sonra Ermənistanın müdafiə naziri, hansı ki, Azərbaycanı yeni müharibə ilə hədələyirdi, vəzifədən çıxarıldı. Onun bir biznes şəriki David Qalustyan həbs olundu. Ermənistanda indi istintaq aparılır. Əgər istintaq ədalətli aparılarsa, dediyim bütün faktlar üzə çıxacaq. Bizdə faktlar var. Lazım olarsa, biz bu faktları açıqlamağa hazırıq. Mənim dediyim sözlər deyil, faktlardır. Qaçaqmalçılıq olub. Sərnişin təyyarələri ilə silah daşınıb. Bu, ümumiyyətlə, qanunazidd əməldir. Rusiyada yaşayan erməni oliqarxlar - həmin bu Karapetyan ilə Abramyan bir yük təyyarəsini almışdılar. Çünki Ermənistanda yük təyyarəsi yox idi. Silahları daşımaq mümkün deyildi. Müharibə dövründə bir yük təyyarəsi almışdılar. O yük təyyarəsi ilə silahları qanunsuz olaraq Ermənistana aparıblar.

Yəni, biz bir çox şeyləri bilirik. Sadəcə olaraq, lazım olan vaxtda və məqamda bəzi şeyləri açıqlayırıq. Bugünkü məlumat Azərbaycan ictimaiyyətinə ilk dəfədir ki, çatdırılır. Belə məlumatlar bizdə çoxdur. Ona görə hesab edirəm ki, bütün tərəfdaşlar bizimlə səmimi davranmalıdırlar. Çünki səmimiyyət və dostluq qarşılıqlı olmalıdır.

# ÖLKƏMİZDƏ SƏNAYELƏŞMƏ ARTIQ İRİ ŞƏHƏRLƏRLƏ YANAŞI REGİONLARI DA ƏHATƏ EDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul rayonunda səfərdə olub.

Həmin gün Hacıqabul Sənaye Məhəlləsinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı, əvvəlcə, sənaye məhəlləsində yerləşən "Azərmaş" zavodu ilə tanış olub. Məlumat verilib ki, bu müəssisə 1500 ədəd yük və xüsusi təyinatlı avtomobil istehsal etmək imkanına malikdir.

Qeyd edək ki, bu zavod gələcəkdə daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac potensialını artırmağı da hədəfləyir. Müəssisə Hacıqabul rayonunda 100 nəfərdən çox insanın məşğulluğunu təmin edəcək. Bu zavodda Özbəkistan və Rusiya ilə birgə layihələr icra olunacaq.

Hacıqabul Sənaye Məhəlləsində yaradılan müəssisələrdən biri də "Elberg" tikinti materialları üçün avadanlıqların istehsalı zavodudur. Bu müəssisə Azərbaycanda ilk təcrübədir.

Məlumat verilib ki, burada tikinti materialları - gips, əhəng, kərpic, alçipan və digər inşaat materialları istehsal edən zavodların layihələndirilməsi və quraşdırılması həyata keçiriləcək.

Sonra Prezident İlham Əliyev "Uyusal Ambalaj" plastik su qabları istehsalı müəssisəsinin açılışını edib.

Xatırladaq ki, Hacıqabul Sənaye Məhəlləsində ümumilikdə müxtəlif istehsal sahələri üzrə 10 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına 45,44 milyon manat investisiya cəlb olunub. Sənaye Məhəlləsində mövcud layihələr üzrə 364 iş yerinin yaradılması nəzərdə tutulub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, ölkəmizdə sənayeləşmə artıq iri şəhərlərlə yanaşı, regionları da əhatə edir. Fəaliyyətdə olan sənaye məhəllələrinə indiyədək 73 milyon manatdan çox sərmayə yatırılıb, 286 iş yeri açılıb. Rezidentlər 96 milyon manatdan çox məhsul satışını həyata keçiriblər.

Aprelin 20-də Hacıqabul-Muğan avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib.

Dövlətimizin başçısına uzunluğu 11,5 kilometr olan yolun texniki göstəriciləri barədə məlumat verilib.

Yolun yenidən qurulması 32 min nəfərin yaşadığı 2 yaşayış məntəqəsi arasında əlaqəni gücləndirəcək. Eyni zamanda, əhalinin həm Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi yoluna, həm də Hacıqabul-Şirvan yolu vasitəsilə digər şəhər və rayonlara rahat çıxışı təmin edəcək.

Aprelin 20-də Hacıqabul rayonunda "Agro Dairy" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqroparkının təqdimatı olub.

Sonra Hacıqabulda 110/35/10 kilovoltluq "Qarasu" yarımstansiyası istismara verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına yarımstansiyada yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, yarımstansiyanın istismara verilməsi ilə ümumilikdə 10 mindən çox əhalinin elektrik enerjisi təchizatı daha da yaxşılaşdırılıb. Yarımstansiyada quraşdırılan müasir tipli eleqaz və vakuum açarları, mikroprosessor tipli rele mühafizə sistemi, Komplekt Transformator Məntəqələri və nəzarət-avtomatika qurğularının elementləri birləşdirilərək vahid "Ağıllı Şəbəkələrin İdarəetmə Mərkəzi"nə qoşulub.

Diqqətə çatdırılıb ki, idarəetmə mərkəzi sayəsində "Qarasu" yarımstansiyasından başlayaraq sayğaclara qədər elektrik şəbəkəsi onlayn rejimdə izlənilir, balansa nəzarət olunur, yarana biləcək problemlərin aradan qaldırılması üçün operativ məlumatların toplanılması, emal edilməsi, informasiya sistemlərinin monitorinqi, təhlili sayəsində qabaqlayıcı tədbirlər görülür.

Aprelin 20-də Hacıqabulda "Azərsun Şamaxı Aqropark"ın açılışı olub.

Dövlətimizin başçısına aqroparkla bağlı məlumat verilib. Bildirilib ki, müəssisə 2 hissədən - əkin sahələri və heyvandarlıq kompleksindən ibarətdir. Heyvandarlıq kompleksində 5 min baş iribuynuzlu heyvan saxlanılır. Aqroparka məxsus 4200 hektar əkin sahəsində buğda, arpa, şəkər çuğunduru, qarğıdalı, yonca və müxtəlif növ tərəvəzlər əkilir. Suvarma üçün burada iki süni göl də yaradılıb. Aqropark yaradılarkən müasir suvarma sisteminin quraşdırılması nəzərə alınıb. Suvarma üçün ümumi tutumu 2,6 milyon kubmetr olan iki süni göl yaradılıb. Ərazidə ən müasir texnologiyaların tətbiqi ilə suvarma sistemi qurulub. Ümumilikdə 77 milyon manat sərmayənin yatırıldığı aqroparkda 200 nəfər daimi işlə təmin olunub. Bundan əlavə, mövsümdə işçilərin sayı 500 nəfərə çatır.

Prezident İlham Əliyev aqroparkın heyvandarlıq kompleksi və süni göl ilə tanış olub.

# ENERGETİKA SEKTORU MÜASİR TƏLƏBLƏR SƏVİYYƏSİNDƏ İNKİŞAF EDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Bakının Suraxanı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 220/110/10 kilovoltluq "Hövsan" yarımstansiyasının açılışında iştirak edib.

Dövlətimizin başçısına yenidən qurulan "Hövsan" yarımstansiyası barədə məlumat verilib.

Bildirilib ki, 45 il əvvəl tikilən "Hövsan" yarımstansiyası müasir səviyyədə yenidən qurulub, buradakı avadanlıqlar yeniləri ilə əvəz olunub. Yarımstansiya "Şimal" Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin ötürülmə keyfiyyətinin artırılmasında, "Abşeron", "Böyükşor", "Suraxanı", "Ramana", "Əhmədli", "Qala", "Zığ" yarımstansiyaları ilə əlaqələnməklə Bakı və Abşeron yarımadasının, xüsusən də Suraxanı, Günəşli, Əhmədli ərazilərinin elektrik enerji təchizatında mühüm rol oynayır.

Qeyd edək ki, son 3 ilə qədər Bakı və Abşeron yarımadasında sistem əhəmiyyətli 220 kilovoltluq 5 yarımstansiya fəaliyyət göstərirdi ki, onların da 4-ü istismar müddətini başa vurub. Son iki ildə isə yeni "Böyükşor" yarımstansiya tikilib və beləliklə, 220 kilovoltluq yarımstansiyaların sayı 6-ya çatdırılıb. Eyni zamanda, istismar müddətini bitirən sistem əhəmiyyətli 220 kilovoltluq dörd yarımstansiyanın üçü - "Müşfiq", "Xırdalan" və "Hövsan" yarımstansiyaları yenidən qurulub, "Nizami" yarımstansiyasında isə işlər yaxın vaxtlarda başa çatdırılacaq.

Dövlətimizin başçısına yenidənqurulan 110/35/6 kilovoltluq "Maştağa" yarımstansiyası barədə də məlumat verilib. Bildirilib ki, yenidən qurulan "Maştağa" Yarımstansiyası Maştağa, Buzovna, Bilgəh, Nardaran qəsəbələrini, Savalan, "Albalılıq" yaşayış massivlərini, dənizkənarı sanatoriya, xəstəxana, otellər və digər obyektlər də daxil olmaqla Sabunçu və Xəzər rayonlarının 150 min nəfərə çatan əhalisinin elektrik enerjisi ilə etibarlı təminatına imkan verəcək.

# ƏSAS MƏQSƏD İNSANLARIN DAHA YAXŞI ŞƏRAİTDƏ YAŞAMASIDIR

Aprelin 16-da Bakının Pirşağı qəsəbəsində yenidənqurma tədbirlərinə start verilib və təmir-bərpa işlərinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin göstərişinə əsasən, 2019-cu ildən Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində xüsusi abadlaşdırma işlərinə başlanılıb. Balaxanı qəsəbəsinin timsalında uğurlu təcrübənin şahidi olmuşuq. Bibiheybət, Novxanı, Əmircan, Ramana qəsəbələrində də bu proses davam edir.

Qəsəbədə abadlıq işləri həm mövcud binalar üzərində, həm də açıq məkanlarda aparılacaq. Mərkəzi hissədə məscidin qarşısında Şərq bağçılıq ənənələrinə uyğun parkın salınması nəzərdə tutulur. Ənənəvi "Çar-bağ" (Cahar-bağ) prinsipi ilə salınacaq parkın mərkəzində su hövzəsi yerləşdirilib və ondan dörd istiqamətdə yollar ayrılır.

Pirşağıda abadlaşdırma işləri məşğulluğun təminatına da müsbət təsir göstərir. Abadlaşdırma zamanı tarixi abidələrin bərpası və aşkarlanması əsas məqsədlərdəndir. Pirşağıda bu mənada bərpa-konservasiya olunacaq abidələrdən biri Hacı Şahverdi hamamıdır. Bu hamam XIX əsrdə Pirşağı qəsəbəsinin sakini Hacı Şahverdi tərəfindən inşa olunub. Yerli əhali arasında o, "Qum hamamı" kimi tanınır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hacı Şahverdi hamamı ilə tanış olublar. Bu il Mərdəkan, Buzovna və Maştağa qəsəbələrinin də bu prosesə qoşulacağı gözlənilir.

# BÖYÜK QƏLƏBƏYƏ GEDƏN YOLUN ŞANLI SƏHİFƏLƏRİ

(əvvəli ötən sayımızda)

**Müsahibimiz millət vəkili, akademik Ziyad Səmədzadədir.**

**- Ziyad müəllim, Aprel döyüşlərindən sonra Azərbaycan xalqının Qələbə əzmi, ruhu artmaqla yanaşı, həm bunu daha qüvvətləndirəcək digər addımların atılmasına, Ordu quruculuğunda daha önəmli mərhələyə start verildi, həmçinin Cocuq Mərcanlıya qayıdışın təməli qoyuldu və sair. Bunlar haqda nə deyərdiniz?**

-Bəli, Aprel döyüşlərindən sonra Azərbaycan Ordusunda daha böyük islahatlara start verildi. Ordumuzun döyüş qabiliyyətinin artırılması, modernləşdirilməsi istiqamətində önəmli addımlar atıldı. Həmçinin, müharibə, hərb iqtisadiyyatının formalaşdırılması, yaradılması yolunda mühüm addımlar atılmağa başlanıldı ki, bunun özü də çox önəmli və vacib idi. Buna ehtiyac və zərurət duyulurdu. Bütövlükdə görülən işlər nəticəsində Azərbaycan Ordusu tezliklə dünyanın 50 ən güclü orduya malik ölkələri sırasında yer aldı və inamla ön yerlərə doğru addımladı. Eyni zamanda, Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Bu məsələdə dövlətimizin başçısının 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazinin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsini həyata keçirdi, həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirildi. Bununla da kənddə böyük quruculuq işlərinə başlandı.

Azərbaycan prezidenti Cocuq Mərcanlıdan dünyaya səsləndi: *"Güclü iqtisadiyyat, güclü Azərbaycan, güclü Ordumuz və keçən ilin aprel ayında aparılan döyüşlər Azərbaycan xalqının, Ordusunun gücünü, cəsarətini göstərdi…"*

2017-ci ilin iyun ayının 14-də Cocuq Mərcanlıya səfər edən Azərbaycan prezidenti çıxışı zamanı bunları dedi:

*"Bu gün tarixi bir gündür, Cocuq Mərcanlı kəndinin bərpası günüdür və bu, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu ölkəmizdə uğurla gedir. Ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir və son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir, ordumuza lazım olan bütün ən müasir texnika, silah-sursat alınır, gətirilir, eyni zamanda, Azərbaycanda bir çox hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab vermişdir. Üç rayonun ərazilərinin bir hissəsi işğalçılardan azad edildi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əks-hücum əməliyyatı nəticəsində bu gün Cocuq Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır. Onlar 20 ildən çoxdur ki, bu yurdun həsrəti, öz doğma torpağına qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, başqa yerdə doğulmusan, sən də Cocuq Mərcanlı kəndinin sakinisən. Amma əminəm, sənin kimi yüzlərlə gənc var ki, Cocuq Mərcanlını görməyib, ancaq buraya qayıtmaq arzusu ilə yaşayır. Bax, bu gün gəldi, bu, tarixi bir gündür. Bu gün, eyni zamanda, onu göstərir ki, biz hələ də işğal altında olan bütün torpaqlara qayıdacağıq. Bunu deməyə əsas verən bir çox amillər var. Güclü iqtisadiyyat, güclü Azərbaycan, güclü Ordumuz və keçən ilin aprel ayında aparılan döyüşlər Azərbaycan xalqının, Ordusunun gücünü, cəsarətini göstərdi. Bu gün biz Cocuq Mərcanlıda yeni gözəl mərhələnin başlanğıcını qeyd edirik. Yeni evlər, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilibdir…"*

Həmçinin, qeyd edildi ki, növbəti mərhələdə ən azı 100 əlavə ev tikiləcək və Cocuq Mərcanlı kəndinin sakinləri buraya qayıdacaqlar.

*"Siz isə gənc zabitlər kimi gələcəkdə ölkəmizin müdafiəsinin keşiyində dayanacaqsınız. Bütün gənclər kimi siz də hər an Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hazır olmalısınız. Bu gün Azərbaycan gənci vətənpərvərdir, Vətənə bağlıdır, peşəkardır, biliklidir və bizim gücümüz bundan ibarətdir. Sizin kimi gənclər gələcəkdə ölkəmizin inkişafında önəmli rol oynayacaqlar…"*, - deyərək ölkə prezidenti fikirlərini tamamladı.

Bəli, Azərbaycan dövlətinin gücü, qüdrəti, iqtisadi inkişafı nəticəsində, ölkə prezidentinin qətiyyəti, yenilməz iradəsi sayəsində ən müasir, modern bir qəsəbə məcburi köçkünlərin istifadəsinə, ixtiyarına verildi, Cocuq Mərcanlıda həyat qaynamağa, canlanmağa başladı və nəticə etibarı ilə Azərbaycan xalqının döyüş, Qələbə əzminə, Qələbəyə olan inamı birə-beş artdı. İstər siyasi, istər diplomatik müstəvilərdə düşmənə, havadarlarına ardıcıl zərbələr vurulmağa başlandı…

**Qanlı xuntanın hakimiyyət ömrünə son qoyulması... Tarixi Cünnüt Zəfəri…**

**- Biz də elə bu məqamlara toxunmaq istərdik. Aprel döyüşlərinin önəmli məqamlarından biri də odur ki, uzun illər həm Ermənistana, həm də bütövlükdə regiona böyük fəlakətlər gətirmiş Koçaryan-Sarkisyan xuntasının hakimiyyət ömrünə son qoyuldu, onlar hakimiyyətdən uzaqlaşdırıldı. Eyni zamanda, Ermənistana növbəti məğlubiyyət acısı yaşadıldı, Cünnüt kəndi və onun ətrafında strateji yüksəkliklər Azərbaycanın nəzarətinə keçdi… İstərdik ki, bu haqda da fikirlərinizi öyrənək.**

- Fikirlərinizlə razıyam. Bəli, heç təsadüfi deyil ki, aprel döyüşlərindən başlayaraq, Ermənistanda yaranan xaos, anarxiya, siyasi-iqtisadi-hərbi böhran daha da gərginləşdi, daha da dərinləşdi və qarşısıalınmaz vəziyyətə gəlib çıxdı. Ermənistan növbəti dəfə vətəndaş müharibəsi ilə üzbəüz qaldı, küçələrə axışan aldadılmış erməni xalqı Sarkisyan rejimini devirdi və növbəti dəfə böyük vədlər verən, "Sorosun uşağı" kimi adlandırılan Nikol Paşinyanı hakimiyyətə gətirdi. Levon Ter-Petrosyandan sonra hakimiyyəti ələ keçirən qanlı xuntanın, Koçaryan-Sarkisyan cütlüyünün hakimiyyətinə birdəfəlik son qoyuldu. Bəli, uğurlu Aprel döyüşləri, Azərbaycan dövləti və Ordusunun gücü qanlı xuntanın hakimiyyət ömrünün sonunu gətirdi.

Azərbaycan dövləti, Azərbaycan Ordusu da yerində saymadı, dayanmadı, əksinə, gücünə güc qatdı. 2018-ci ilin yayına yaxın Azərbaycan Ordusu növbəti uğuruna, Zəfərinə imza atdı. Naxçıvan istiqamətində çox mühüm irəliləyişlər əldə olundu, bir sıra mühüm strateji məntəqələr, o cümlədən Cünnüt kəndi Ermənistanın işğalından azad olundu, bütövlükdə 11 min hektar torpaq murdar yağı tapdağından azad edildi və Ermənistana növbəti sarsıdıcı hərbi zərbə endirildi.

Bir daha həqiqətə göz yuman dünya Azərbaycan dövlətinin iradəsini, Azərbaycan Ordusunun gücünü, Qələbə əzmini gördü.

**Dünyaya səs salan 26 iyun Hərbi Paradı və 15 sentyabr Paradı…**

**- Ziyad müəllim, 2018-ci il iyunun 26-da və sentyabrın 15-də keçirilən və dünyaya səs salan, Zəfərimizi, Qələbəmizi mənəvi cəhətdən yaxınlaşdıran, zənginləşdirən paradlarla da bağlı fikirlərinizi bilmək maraqlı olardı. Bu paradlarla nələrin mesajı verildi, nələrə nail olundu?**

- Bəli, qeyd etdiyiniz kimi, 2018-ci ilin 26 iyun tarixində Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ilə bağlı Bakı şəhərində, Azadlıq meydanında dünyaya səs salan Hərbi Parad keçirildi. Bir daha Azərbaycan Ordusunun gücü, qüdrəti, döyüş hazırlığı, döyüş qabiliyyəti, ən müasir silahlara, texnikalara yiyələnməsi dünyaya nümayiş olundu, düşmənə gözdağı verildi. Ali Baş Komandan Hərbi Parad zamanı tarixi nitq söyləyərək, bir daha düşmənə və onun havadarlarına qəti xəbərdarlığını bildirdi, Azərbaycanın işğalla barışmadığını və barışmayacağını, Qarabağın işğalının heç də uzaq olmadığını bəyan etdi.

Çıxışında *"Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir"*, - deyən Ali Baş Komandan bir daha bildirdi ki, Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.

*Ali Baş Komandan daha sonra dedi:*

*"2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".*

Bəli, 2018-ci ilin 26 iyun tarixli Hərbi Paradı Azərbaycanın növbəti dəfə əzminin, iradəsinin, Qarabağsız yaşaya bilməyəcəyinin nümayişi, mesajı oldu. 26 iyun Hərbi Paradından təxminən 3 ay sonra, 2018-ci il sentyabrın 15-də isə Nuru Paşanın başçılığı ilə Qafqaz-İslam Ordusu tərəfindən Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş növbəti təntənəli tədbir, Parad təşkil edildi.

Paradda tarixi və parlaq çıxışında *"Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Mənfur qonşular 1990-cı illərin əvvəllərində Azərbaycandakı qeyri-sabit vəziyyətdən istifadə edərək, torpaqlarımızın bir hissəsini işğal edib. İşğal edilmiş torpaqlarda bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən vəhşicəsinə məhv edilib. Xalqımıza qarşı soyqırımı törədilib və bu işğal bu gün də davam edir. Ona görə güclü ordu Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması, ərazi bütövlüyünün bərpası üçün əsas şərtdir. Azərbaycan Ordusu döyüş meydanında öz gücünü, məharətini göstərmişdir"*, - deyən, dünyaya səslənən Azərbaycan prezidenti bir daha altını cızaraq dedi ki, gün gələcək Azərbaycanın dövlət bayrağı işğal altında olan bütün torpaqlarda qaldırılacaq.

*"Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır"*, - deyən Azərbaycan prezidenti, eyni zamanda, bəyan etdi ki, bu gün - 15 sentyabr, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür.

**Sitat:** *"Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir".*

Rəcəb Tayyib Ərdoğan: "Türkiyə olaraq Qarabağ probleminin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik…"

Bəli, növbəti birlik, bərabərlik, qardaşlıq və dostluq mesajı verilmiş oldu. Bu yerdə mütləq şəkildə qeyd etmək, xatırlatmaq lazımdır ki, həmin tarixi gündə - 2018-ci il 15 sentyabr Paradında da Türkiyə dövləti və cənab Ərdoğan başda olmaqla Türkiyə siyasi-hərbi elitası Azərbaycanı tək, yalnız buraxmadı. Hərbi Paradda iştirak edən Türkiyə prezidenti tarixi çıxış edərək, bir daha iki ölkənin *"iki dövlət-bir millət"* olduğunun, onların birlik və bərabərliyinin mesajını dünyaya duyurmuş oldu.

**O, dedi:**

*"…Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə burada həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək, bugünkü müstəqilliyinin təməlini qoyub. Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etməsindən sonra onu ilk tanıyan ölkənin Türkiyə Respublikası olması heç də təsadüfi deyil. Bu, qan qardaşlığımızın təbii nəticəsidir. Türkiyə olaraq müstəqilliyinin ilk dövrlərindən başlayaraq Azərbaycana əlimizdən gələn hər cür dəstəyi göstərdik və göstərməyə davam edəcəyik. Bu gün Türkiyə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır. Müstəqilliyini bərpa etdikdən bəri Türkiyədə təhsil almış azərbaycanlıların sayı 125 mindən çoxdur. Hazırda 15 mindən çox azərbaycanlı tələbə Türkiyə universitetlərində təhsil alır. Əsgərlərimiz birgə təlimlər keçir, Əfqanıstan kimi dünyanın müxtəlif bölgələrində birlikdə fəaliyyət göstərirlər. Şübhəsiz ki, bu uğurlarda ümummilli lider Heydər Əliyevin nümayiş etdirdiyi dəyanətli liderliklə yanaşı, əziz qardaşım İlham Əliyevin səylərinin çox böyük bir payı vardır…"*

Daha sonra *"Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir"*, - deyən Türkiyə prezidenti bəyan etdi ki, Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi Türkiyə dövləti və xalqı üçün də eyni dərəcədə ağrılı problemdir.

*"Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. İllərdir vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir. Əvvəla, bu məsələdə addım atmalı olan tərəf işğalçılardır, bir milyon qardaşımızın qəlbini doğma vətən həsrəti ilə yandıranlardır. Əlbəttə, biz bütün qonşularımızla yaxşı əlaqələr qurmağı və davam etdirməyi arzu edirik.*

***(davamı 6-cı səhifədə)***

# MİFLƏR VƏ ELMİ ARAŞDIRMALAR

Rəqəmsal mühitdə elmi anlayışların formalaşmasında elmi publisistikanın fəallığı yüksəkdir. Bu baxımdan elmi publisistikanın heç də həmişə aktual problemlərə aydınlıq gətirməyən çevikliyi həmin anlayışların daim kəsişməsi və bir-birini təkrarlaması ilə nəticələnir. Belə vəziyyət rəqəmsal iqtisadiyyata dair mənbələrdə də müşahidə olunur və bu məqam diqqətdən kənarda qalmamalıdır. Unutmaq olmaz ki, yeni bilik daxil olduğu sistemdə təməl kimi qəbul olunmuş ənənəvi biliklərlə uzlaşmalıdır. Əks halda, sistem aşkar və qeyri-aşkar müqavimətlə yeni biliyin yayılması və mənimsənilməsini məhdudlaşdıra bilər.

Əlbəttə, uzun illərin təcrübəsindən göründüyü kimi, daha münasib yol anlayışlar barədə əsaslı razılığa gəlməkdir. Təcrübədə sonuncu variant, bir çox hallarda məqbul hesab edilir. Beynəlxalq təşkilatlar səviyyəsində müşahidə olunan yanaşma sadə və daha məqbuldur. Deyək ki, 2018-ci ilə qədər BMT-nin informasiya iqtisadiyyatı haqqında olan məruzəsi 2019-cu ildən rəqəmsal iqtisadiyyat haqqında məruzə adı altında təqdim olunmuşdur. Təşviq edilməli müsbət texnologiyalar qismində rəqəmsal texnologiyalar, habelə rəqəmsal mühitin digər əsas komponentləri zəruri anlayışlar bazasının hüquqi baxımdan birmənalı qəbul olunmasını tələb edir. Əks halda selektiv təşviq mexanizmində birmənalı yanaşmanı təmin etmək mümkün deyildir. Odur ki, rəqəmsal mühitin səciyyələndirilməsi üçün istifadə olunan anlayışların dəqiqləşdirilməsində hüquqi aspektin mühüm rolu diqqət mərkəzində saxlanmalıdır.

**Rəqəmsal iqtisadiyyat barədə yayılan miflər**

Rəqəmsal iqtisadiyyat barədə yayılan miflərin yaratdığı kolliziya da xeyli dərəcədə burada istifadə edilən anlayışlara münasibətlə əlaqədardır. Belə ki, həmin miflər barədə müxtəlif mənbələrdə əksini tapan fikirləri aşağıdakı kimi ümumiləşdirmək olar:

*- informasiya texnologiyaları rəqəmsal iqtisadiyyatdır. Əslində isə bunlar sinonim deyildir. Rəqəmsal iqtisadiyyat biznes modellər yaradır, informasiya texnologiyaları isə alət rolunu oynayır;*

*- rəqəmsal iqtisadiyyat dərhal qeyri-səmərəliliyi aradan qaldırmağa imkan verəcəkdir. Reklam xarakterli bu fikir rəqəmsal məhsul və xidmət sifarişçilərində etimad doğurmasa da, onları az-çox dərəcədə cəlb edir. Reallıqda isə iqtisadi səmərəliliyə gözlənilən birbaşa müsbət təsir, hələ ki, arzuedilən dərəcədə baş vermir;*

*- rəqəmsal iqtisadiyyat = virtual reallıq + maşın tədrisi kimi qəbul oluna bilər. Maşın tədrisi, hələ ki, virtual reallığın bütün müxtəlifliyinə, motivləşdirmə və keyfiyyət tələblərinə adekvat reaksiya vermək iqtidarı nümayiş etdirmir;*

*- rəqəmsallaşma ixtisaslı işçi qüvvəsi çatışmazlığı problemini yumşalda bilər və s. Ayrı-ayrı hallarda baş verən bu meyil, sinxron surətdə məşğulluğun strukturuna və əmək bazarının inkişafında ahəngdarlığa müsbət təsir edən ümumi meyil müşahidə edilmir.*

Eyni zamanda, demək lazımdır ki, ilkin yanaşmada bu miflərin reallıqla, daha doğrusu, virtual aləmdəki reallıqla nə dərəcədə əlaqədar olduğu məsələsinə, gələcəkdə yeri gəldikcə aydınlıq gətirmək lazımdır. Virtual aləmdə baş verən dəyişiklikləri proqnozlaşdırmaq, heç də həmişə məqbul nəticə verə bilməz. Burada Uinston Çerçilin bir kəlamını xatırlamaq yerinə düşərdi: çox uzağa baxmaq uzaqgörənlik deyildir.

İndi isə rəqəmsal mühitdə iqtisadi reallığın bəzi təzahürlərinə nəzər salaq. Rəqəmsal iqtisadiyyat, sözün müstəqil mənasında informasiya cəmiyyətinin məhsuludur. Çünki iqtisadiyyat təbiətlə cəmiyyətin kəsişməsində yaranıb və həmişə az resursdan çox məhsul götürməyə yönəlib. Məlum olduğu kimi, heç bir iqtisadi subyekt üçün resurs problemi olmayan yerdə iqtisadi problem də yoxdur.

**Virtual şəbəkə effekti və reallıq**

İnformasiya cəmiyyətinin yaratdığı rəqəmsal iqtisadiyyat, əlbəttə, şəbəkə xarakterlidir. Əslində, rəqəmsal iqtisadiyyatın, ilkin təşəkkül dövründə, onun başlıca olaraq şəbəkə effektindən yararlandığını söyləmək daha doğru olardı. Burada prinsipcə, şaquli və üfüqi əlaqələrin eyni hüquqlu olması arzu edilir. Reallıqda dövlətlər daha çox şaquli əlaqələri, transmilli korporasiyalar isə üfüqi əlaqələri dəstəkləyirlər. İnformasiya cəmiyyəti inkişaf etdikcə, onun bu təsirləri tarazlaşdıra biləcəyi ehtimalı artır.

Rəqəmsal iqtisadiyyat nəticə etibarı ilə əlaqələrdən gəlir əldə etməyi nəzərdə tutur. Bu zaman əsas istiqamətlərdən biri tranzasiya xərclərini minimuma endirməklə, optimal əlaqələr yaratmaqla izafi mənfəət əldə etməkdir. Doğrudur, meqatexnikanın layihələndirilməsi və istehsalı böyük vəsait tələb edir və buna, əsasən, aparıcı Qərb dövlətləri qadirdir. Digər ölkələr ilk vaxtlar ən yaxşı halda törəmə texnologiyalardan yaradıcı surətdə istifadə edə bilirlər. Əlbəttə, bu, özü də kifayət qədər ciddi tərəqqi amili ola bilir.

Rəqəmsal iqtisadiyyatda texnoloji sirləri gizli saxlamaq get-gedə çətinləşir. Əsas səbəblərdən biri rəqəmsal iqtisadiyyatın şəbəkə xarakterli olması və bu əsasda inkişaf etməsidir. Rəqəmsal bazarda mövqeni möhkəmləndirmək üçün istifadəçilərin tələb və zövqlərində baş verən hər bir dəyişikliyi nəzərə almaq lazım gəlir. Başqa sözlə, hər bir potensial müştərinin şəbəkə istifadəçisi olması get-gedə daha ucuz və rahat başa gəlməlidir. Bu səbəbdən artıq onilliklərdir ki, kompüterlərin təkmilləşdirilməsində istifadə rahatlığı meyarı öndədir. Belə ki, kompüterlərin kütləvi istifadəçisi üçün istifadə rahatlığı və kompüterlərin yeni modifikasiyalarına tez uyğunlaşma imkanlarının genişləndirilməsi həlledici amil olaraq qalır.

Mövcud kompüterlər sözü rəqəmə, ifadəni düstura çevirməyi tələb edirsə, neyrokompüterlər nəsli çoxsaylı təkrarlanmalarla alqoritm seçməyi nəzərdə tutur. Başqa sözlə, "kompüter məntiqi" və insan məntiqi arasında fərqlər tədricən azalır. Haqqında danışılan azalma, müəyyən ehtimalla informasiya cəmiyyətinin inkişafına və nəticə etibarı ilə texnoloji tərəqqinin qloballaşmasına xidmət edə bilər. İnformasiya cəmiyyətinin üstünlüyü o halda bütün insanlar və toplumlar üçün az-çox dayanıqlı inkişaf şəraiti yarada bilər ki, qlobal informasiya cəmiyyətinin prinsiplərinə əməl edilsin. Bu prinsiplər informasiya münasibətlərində ədaləti, informasiya resurslarına hamının istənilən vaxtda açıq müraciət imkanını nəzərdə tutur. Həmin prinsiplərə riayət edilməsi üçün informasiya cəmiyyəti quruculuğunda cəmiyyətin daha çox üzvünün hərtərəfli marağının və iştirakının təmin edilməsini nəzərdə tutur. Dünyada təşəkkül tapmış mövcud iqtisadi münasibətlər şəraitində bu, bir qədər utopiyaya oxşaya bilər. Bununla belə, qlobal informasiya cəmiyyətinin prinsiplərinə etinasızlığın cəmiyyətin müxtəlif təbəqələrində etiraz doğurmayacağını da gözləmək doğru olmazdı.

**Rəqəmsal mühitdə elmi tədqiqatlar**

Rəqəmsal mühitdə elmi tədqiqatların xarakterində mühüm keyfiyyət dəyişiklikləri baş verir. Yeniliklər özünü, məhz rəqəmsal texnologiyaların tətbiq edildiyi tədqiatlarda daha aşkar şəkildə göstərir. Elmi tədqiqatlarda məşğulluğun strukturu dəyişir. Xeyli sayda heyət böyük verilənlər bazasından istifadə xidmətlərində və habelə həmin bazanın genişləndirilməsi istiqamətində fəaliyyət göstərir. Belə ki, hazırda əhəmiyyətli elmi nəticələrin alınması üçün müvafiq predmet sahəsində çox böyük miqdarda verilənlərin təhlili tələb olunur. Özü də bu təhlil prosesində artıq bir sıra sahələrdə süni intellektdən istifadə etmədən keçinmək, demək olar ki, mümkün deyildir. İlkin yanaşmada belə güman etmək olar ki, süni intellekt texnologiyalarından istifadə olunan elmi tədqiqatların nəticələrinin keyfiyyəti və əldə edilməsi müddəti böyük verilənlər bazasının strukturlaşdırılması dərəcəsindən bilavasitə asılı olacaqdır. Bu asılılığın alternativ axtarışlarına əngəl törətməsi ehtimalı da nəzərdən qaçırılmamalıdır.

Rəqəmsallaşma bir çox fəaliyyət sahələrində olduğu kimi, elmi tədqiqatlarda da şəffaflığı artırmaq üçün potensial imkanlara malikdir. Həmin imkanların reallaşdırılması böyük verilənlər bazasının dəyişən şəraitə uyğunlaşması çətinlikləri səbəbindən ləngiyə bilər. Rəqəmsallaşma şəraitində müştərək elmi fəaliyyət imkanları genişlənir. Eyni zamanda, yüksək ehtimalla, demək olar ki, elmi tərəfdaşlığın əhatə dairəsinin genişlənməsi və inkişafı da böyük verilənlər bazasının genişlənməsində və qismən strukturlaşma səviyyəsinin yüksəlməsində müsbət rol oynayacaqdır. Elmin sosial sifarişlərə operativ reaksiya verməsi baxımından da rəqəmsallaşma prosesləri potensial əlverişli şərait yaradır. Bu şəraitin üstünlüklərini reallaşdırmaq üçün şirkətlərin elmi tədqiqat prioritetlərinin müəyyən edilməsi və idayaların kommersiyalaşması prosesinə fəal surətdə cəlb edilməsi üzrə müsbət təcrübə (məs. Cənubi Koreya təcrübəsi) vardır. Həmin təcrübənin bütün ölkələrdə tətbiqi imkanları məhdud görünsə də, istənilən halda qabaqcıl və sosial məsuliyyətli şirkətlərin elmi tədqiqat prioritetlərinin müəyyən edilməsi və idayaların kommersiyalaşması prosesinə cəlb edilməsi təcrübəsinin öyrənilməsi və qiymətləndirilməsi məqsədəuyğundur.

Rəqəmsal mühit elmin bir çox sahələrində, xüsusilə iqtisadiyyatda rəsmi statistikaya olan ehtiyacı azaltmır. Rəqəmsallaşma şəraitində rəsmi statistikanın təqdim etdiyi verilənlərə cəmiyyətin, işgüzar dairələrin və dövlətin tələbləri, əhəmiyyətli dərəcədə dəyişir. Daha tez, daha əhatəli və reallığı hərtərəfli əks etdirən verilənlərin təqdim edilməsi üçün rəsmi statistikada, hər şeydən əvvəl müşahidələrin metodologiyalarını rəqəmsal mühitin tempinə uyğunlaşdırılmağa çalışmalı və həmin mühitin imkanlarından verilənlərin yığılması, emalı, təqdimatı və s. məqsədilə istifadə imkanı əldə etməlidir.

Statistik müşahidələrin əhatə dairəsini genişləndirmək üçün təcrübədən göründüyü kimi, şəbəkə effektinin reallaşdırılması imkanları əhəmiyyətli dərəcədə genişləndirilməlidir. Onu da qeyd edək ki, bu istiqamətdə artıq real təcrübi nəticələr vardır. Əlbəttə, unutmaq olmaz ki, respondentlərə düşən ağırlığın azaldılması da az əhəmiyyətli məsələ deyildir. İlkin yanaşmada rəsmi statistikaya qoyulan bütün tələblərə, eyni zamanda, əməl edilməsi üçün müxtəlif mənbələrdən daxil olan verilənlərin inteqrasiyası məqbul sayılmalıdır. Bu addım böyük verilənlər bazasının formalaşdırılması fəlsəfəsinə uyğundur. Onu da qeyd edək ki, rəsmi statistika, ümumiyyətlə ənənəvi statistik verilənlərin yığılmasının mövcud sistemi əvəzinə, gələcəkdə böyük verilənlər bazasından istifadə edilməsi təklifinə ehtiyatla yanaşılmalıdır. Bu istiqamətdə atılması nəzərdə tutulan addımlar (anlayışların və metodologiyaların vahid sisteminin yaradılması və s.) belə, haqqında danışılan dəyişməyə münasibətdə birmənalı müsbət fikir söyləməyə hələ ki, kifayət qədər əsas vermir.

**Rəsul Balayev, i.e.d,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)**
**"Rəqəmsal texnologiyalar və tətbiqi informatika"**
**kafedrasının professoru**

# K.Mikuriya: Azərbaycan gömrük xidmətinin informasiya texnologiyalarının tətbiqi sahəsində atdığı addımları alqışlayırıq

Aprelin 20-də Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Yük Hədəfləmə Sisteminin (YHS) Azərbaycan gömrük xidmətində tətbiqi ilə bağlı görülmüş işlərin yekunlaşmasını nəzərdə tutan sənədin onlayn imzalanması mərasimi keçirilib.

Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, mərasimdə DGK-nın sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, komitənin müvafiq qurumlarının rəhbərləri, ÜGT-nin Baş katibi Kunio Mikuriya, bu qurumun Nəzarət və Asanlaşdırma üzrə direktoru Pranab Kumar Das, Administrasiya və heyət üzrə rəhbər Hans Pieters və digər şəxslər iştirak ediblər.

S.Mehdiyev bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin səmərəli şəkildə reallaşdırdığı uzaqgörən və uğurlu inkişaf kursu nəticəsində Azərbaycan gömrük xidməti ticarətin asanlaşdırılması və təhlükəsizliyin təmin edilməsi istiqamətində bir çox islahatlar həyata keçirib, şəffaf siyasət və korrupsiya ilə mübarizə tədbirləri nəticəsində böyük nailiyyətlər əldə edib.

ÜGT-nin risklərin idarə edilməsinə əsaslanan sisteminin Azərbaycan gömrüyündə tətbiqinin DGK üçün böyük əhəmiyyət daşıdığını vurğulayan komitə sədri qeyd edib ki, gömrük işində risklərin qiymətləndirilməsinə dəstək məqsədilə hazırlanan və yüklərə dair məlumatların toplanmasına, saxlanmasına və mübadilə edilməsinə imkan verən YHS yüksək riskli yüklərin müəyyənləşdirilməsinə və aşağı riskli yüklərin gömrük-sərhəd buraxılış məntəqələrindən keçidinin sürətləndirilməsinə, bununla da ticarətin asanlaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə imkan yaradacaq. Bildirib ki, mövcud resurslardan daha səmərəli istifadə olunmasına, sərhədkeçmə proseslərinin sürətləndirilməsinə şərait yaradan bu sistem Azərbaycan üzərindən keçən "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin cəlbediciliyinin və ölkəmizin tranzit potensialının artması ilə nəticələnəcəkdir.

Azərbaycan gömrük xidmətinin informasiya texnologiyalarının tətbiq edilməsi sahəsində irəliyə doğru atdığı addımları alqışlayırıq deyən K.Mikuriya iki il əvvəl ölkəmizdə informasiya texnologiyalarının gömrük sistemində tətbiqinə dair konfrans və sərginin keçirildiyini xatırladıb, bu tədbirlərdə Azərbaycan gömrüyünün və digər dövlətlərin gömrük orqanlarının İT sahəsindəki təcrübələrinin, innovativ yanaşmalarının nümayiş etdirildiyini vurğulayıb. Sonra çıxış edənlər YHS-in əhəmiyyətindən, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsindəki rolundan bəhs ediblər.

Sonda Ümumdünya Gömrük Təşkilatının Yük Hədəfləmə Sisteminin Azərbaycan gömrük xidmətində tətbiqi ilə bağlı görülmüş işlərin yekunlaşmasını nəzərdə tutan sənəd onlayn şəkildə imzalanıb.

# İstehlakçı hüquqlarının müdafiəsi ilə bağlı sahibkarlarla görüş olub

İstehlak bazarında malların dövriyyəsi çoxaldıqca onların keyfiyyəti və satış şərtləri ilə bağlı istehlakçıların müraciətləri də artır.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bu halların qarşısının alınması, istehlakçı hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində məişət texnikası və əşyalarının, geyimlərin, mobil telefonların, mebel istehsalı və satışını həyata keçirən müəssisələrin, həmçinin xaricdən sifariş verilən malların çatdırılması ilə məşğul olan sahibkarlıq subyektlərinin nümayəndələri ilə görüş keçirilib. Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən Sahib Məmmədov bildirib ki, qurumun təhlilləri ticarət şəbəkələri tərəfindən istehlakçı hüquqlarının pozulması hallarının daha çox lazımi keyfiyyətdə olmayan və ya saxta malların geri qaytarılmaması, malların dəyişmə və qaytarılma qaydalarına əməl edilməməsi, mallara zəmanət müddətinin tətbiq olunmaması, müqavilələrdə istehlakçı hüquqlarının məhdudlaşdırılması ilə bağlı olduğunu göstərir. Mallar barədə düzgün məlumatın verilməməsi, məcburi sertifikatlaşdırılmalı olan mallara aid sertifikatların təqdim edilməməsi də çox rast gəlinən qanun pozuntularındandır. Bundan əlavə, istehlakçıların malların servis mərkəzlərində aparılan ekspertizaların nəticələri ilə bağlı narazılıqları və müraciətləri də artıb.

Görüşdə sahibkarlara qanunvericiliyin tələbləri izah edilib, bu halların aradan qaldırılması, istehlakçı hüquqlarının qorunması, müştəri məmnuniyyətinin təmin olunması və qanunvericiliyin tələblərinə ciddi əməl olunması ilə bağlı tövsiyələr verilib.

# İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi növbəti 5 il üçün milli prioritet üzrə strategiya hazırlayır

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı deyib.

V.Qasımlı bildirib ki, növbəti beşillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır: dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi. Bu yaxınlarda hazır olunacaq növbəti 5 il üçün Strateji Yol Xəritəsi də bu 5 Milli Prioritetə əsaslanacaq.

"Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərimizin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək. Bizim əsas məqsədlərimizdən biri də postpandemiya dövründə ölkədə iqtisadi artımın bərpa olunmasıdır. Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının proqnozlarına görə, artıq bu il Azərbaycan 2-3 faiz iqtisadi artım formalaşdıra bilər", - deyə V.Qasımlı əlavə edib.

# Fərdi sahibkarların sayı 1 milyonu ötüb

Aprelin 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyonu keçib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat dövründə hər dörd fərdi sahibkardan üçü "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı" və "Digər sahələrdə xidmətlərin göstərilməsi" sahələri üzrə qeydiyyatdan keçib. Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (27,9 faiz), Aran (21,5 faiz), Gəncə-Qazax (13,8 faiz) və Lənkəran (9,7 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 78,7 faizini kişilər, 21,3 faizini isə qadınlar təşkil edib.

Qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 31 faizini, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət sahəsində 23,8 faizini, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 20,8 faizini təşkil edir. Sahibkar qadınların 30,7 faizi Bakıda, 17,9 faizi Aran, 16,1 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib.

Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (23,4 faiz), Gəncə-Qazax (24,9 faiz), Naxçıvan Muxtar Respublikası (22,5 faiz) və Lənkəran (21,6 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

# Muzdla çalışanların 915,5 min nəfəri dövlət sektorunda işləyir



Cari il martın 1-nə ölkədə muzdla çalışan işçilərin sayı 1 milyon 678,5 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 915,5 min nəfər, qeyri-dövlət sektorunda isə 763 min nəfər təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda 33,2 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1 milyon 645,3 min nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,5 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,4 faizi emal sənayesində, 7,3 faizi tikintidə, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2 faizi mədənçıxarma sənayesində, 1,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 19,7 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi istirahət, əyləncə və incəsənət, 1,7 faizi informasiya və rabitə, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışıblar.

Bu ilin yanvar-fevral aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 142,7 saat təşkil edib.

# Azərbaycan-Türkiyə İş Adamları Forumu keçirilib

Aprelin 20-də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında İctimai Şuranın təşkilatçılığı və Türkiyənin Müstəqil Sənayeçilər və İş Adamları Birliyinin (MÜSİAD) Azərbaycandakı nümayəndəliyinin tərəfdaşlığı ilə "Azərbaycan-Türkiyə iş adamları forumu: mövcud vəziyyət və perspektivlər" mövzusunda onlayn forum keçirilib.

KOBİA-dan bildirilib ki, forumda Dövlət Gömrük Komitəsinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Azərbaycan İnvestisiya Şirkətinin, Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA), Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Türkiyə Respublikasının Kiçik və Orta Müəssisələrin İnkişafı və Dəstəklənməsi Təşkilatının (KOSGEB), Türkiyənin ölkəmizdəki Ticarət Müşavirinin, MÜSİAD-ın, ATİB-in və TÜİB-in nümayəndələri, eləcə də hər iki ölkədən olan iş adamları və biznes assosiasiyaları iştirak ediblər.

İctimai Şuranın sədri Fərhad Qaraşov qeyd edib ki, forumun təşkilində məqsəd Azərbaycandakı türk iş adamlarının fəaliyyətinin genişləndirilməsi və onların fəaliyyəti ilə bağlı aktual məsələlərin ictimai müzakirəsidir. Forum KOBİA yanında İctimai Şura çərçivəsində xarici tərəfdaşların iştirakı ilə keçirilmiş ilk beynəlxalq tədbirdir.

KOBİA-nın dəstəyi ilə təşkil olunmuş onlayn forumda agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov yüksələn xətlə inkişaf edən Azərbaycan-Türkiyə iqtisadi əlaqələri çərçivəsində iki ölkə arasında kiçik və orta sahibkarlıq sahəsində də tərəfdaşlıq imkanlarının genişləndiyini vurğulayıb. Qeyd olunub ki, Türkiyə iş adamlarının Azərbaycanda fəaliyyətinin daha da genişləndirilməsi üçün imkanlar böyükdür və KOBİA Azərbaycanda fəaliyyət göstərən və ya biznes qurmaq istəyən türk iş adamlarına dəstək göstərməyə hazırdır.

KOSGEB-in rəhbəri Hasan Basri Kurt, Türkiyənin ölkəmizdəki ticarət müşaviri Eser Çengel, MÜSİAD-ın nümayəndələri Abdurahman Uzun və Muhterem Öz hər iki ölkənin iş adamları arasında mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi imkanları, xüsusilə KOB sahəsində tərəfdaşlıqla bağlı fikirlərini bölüşüb, əməkdaşlığa dair müxtəlif təkliflər səsləndiriblər.

Azərbaycan İnvestisiya Şirkətinin nümayəndəsi Fərid Quliyev və AZPROMO-nun departament direktoru Zöhrab Qədirov təmsil etdikləri qurumların fəaliyyəti, ölkəmizin investisiya və ixrac potensialı və Türkiyə şirkətləri ilə əməkdaşlıq perspektivləri barədə məlumat veriblər.

# Qeyri-neft-qaz məhsullarının ixracı artıb

Yanvar-fevral aylarında qeyri-neft-qaz məhsullarının ixracı ötən ilin eyni ayları ilə müqayisədə faktiki qiymətlərlə 12,1 faiz artıb, real ifadədə isə 3,2 faiz azalaraq 331,3 milyon dollara bərabər olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Türkiyəyə (32,3 faiz), Rusiyaya (25,8 faiz), İsveçrəyə (10,6 faiz), Gürcüstana (8,6 faiz), ABŞ-a (4 faiz), Çinə (2,9 faiz), Ukraynaya (1,7 faiz), Almaniyaya (1,5 faiz), Türkmənistana (1,3 faiz), İtaliyaya (1,2 faiz), İrana (1,1 faiz), Birləşmiş Krallığa (1 faiz) göndərilmiş malların payı üstünlük təşkil edib.

*(əvvəli 3-cü səhifədə)*

*Amma Dağlıq Qarabağ probleminin həlli Ermənistanla əlaqələrimizin bərpasının ən vacib şərtidir. Bunu hamı bilməlidir. Bundan 26 il əvvəl Xocalıda, Dağlıq Qarabağda törədilmiş qətliamlara görə məsuliyyət daşıyanların, qatilləri qəhrəman elan edənlərin bizə verə biləcəyi heç bir tarixi dərs yoxdur. Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır"*, - deyə bəyan edən qardaş dövlətin lideri birmənalı şəkildə qeyd etdi ki, bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik.

Bəli, qandan, candan, ruhdan, kökdən, keçmişdən gələn bir sevgi, bir bağlılıq, bir həmrəylik… 15 sentyabr Paradı bir daha bunun əyani nümayiş oldu. Dostlar sevindi, düşmənlər isə kədərə qərq oldu.

**Koçaryandan, Sarkisyandan geri qalmayan Paşinyan və ya Ermənistanın daha iriçaplı ifşa dönəmi...**

**- Ziyad müəllim, 2016-cı ilin uğurlu Aprel əməliyyatlarından başlanan Zəfər yolu, uğurumuz, həmçinin Ermənistan üzərində ardıcıl mənəvi-siyasi-diplomatik qələbələrlə daha qüvvətləndirildi, zənginləşdirildi. Valdayda, Aşqabadda, Münxendə keçirilən sammitlərdə Ermənistan zərbə dalınca zərbə aldı… Mümkündürsə, bu barədə də fikirlərinizi oxucularla bölüşərdiniz.**

- Bilirsiniz, çox təəssüflər olsun ki, düşmən - inqilab, çevriliş yolu ilə və böyük vədlərlə hakimiyyətə gələn Paşinyan hakimiyyəti də əvvəlki iqtidarlardan, cinayətkar Koçaryan və Sarkisyandan fəqlənmədi, əksinə, onları öz avantürası və sərsəm bəyanatları ilə geridə qoydu, Qarabağ münaqişəsinin həllində konstruktivlik nümayiş etdirilməyəcəyini bir daha nümayiş etdirmiş oldu. Nəticədə də Ermənistanın siyasi-diplomatik müstəvilərdə məğlubiyyətləri, uğursuzluqları, erməni yalanlarının ifşası ard-arda düzüldü. Azərbaycan dövləti, Azərbaycan prezidenti Ordu quruculuğunu gücləndirməklə, hərbiyə ayrılan vəsaiti artırmaqla yanaşı, siyasi-diplomatik müstəvilərdə də tam hücum mövqeyi sərgilədi, hər gün Ermənistanın ifşasını gerçəkləşdirdi, sürətləndirdi.

**Valday, Aşqabad, Münxen fiaskosu...**

Ermənistana növbəti və ən böyük diplomatik zərbələrdən biri Rusiyanın Soçi şəhərində keçirilən nüfuzlu Valday Diskussiya Klubunun növbəti sammiti - konfransı zamanı vuruldu. Yeri gəlmişkən, elə bu yerdə xatırladım ki, "Valday" Beynəlxalq Diskussiya Klubu 2004-cü ildə yaradılmışdır. Klubun ilk konfransı Rusiyanın Veliki Novqorod şəhərində, Valday gölünün sahilində keçirilmişdir. Elə klub adını da buradan götürmüşdür. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilən klub tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer vermişdir. İndiyədək klubun işində 70-dən çox ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, həmçinin dövlət və hökumət başçıları iştirak etmişdir. Onu da bildirək ki, digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunurlar… Bəli, qeyd etdiyimiz kimi, Valday konfransı Ermənistanın, Paşinyan hakimiyyətinin növbəti fiaskosuna çevrildi. Belə ki, təxribatçı və fitnəkar çıxışı zamanı "Qarabağ Ermənistandır və nöqtə" deyən Paşinyanın cavabı dərhal, elə yerindəcə və daha sarsıdıcı şəkildə verildi. Azərbaycan prezidenti çıxışında Ermənistanın işğalçılıq siyasətini hər mənada ifşa edərək, "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək, həm Ermənistanı, həm havadarlarını, həm də Paşinyanı seytnot vəziyyətinə saldı.

**Sitat:** *"Deməliyəm ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bu gün də davam edir. Dünən erməni snayperi tərəfindən dinc sakin, münaqişə zonasından uzaqda, Ermənistanın Azərbaycanla sərhədində yerləşən Qazax rayonunun sakini qətlə yetirilib. Həmçinin, deməliyəm ki, 2016-cı ilin aprelində hərbi təxribat zamanı altı dinc sakin, o cümlədən balaca qız qətlə yetirilib. Həmçinin, Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".*

Qeyd etdiyimiz kimi, Azərbaycan prezidenti bu tarixi nitqi ilə Ermənistana elə bir siyasi-mənəvi-diplomatik zərbə vurdu ki, Ermənistan və onun bədnam rəhbərliyi uzun müddət özünə gələ bilmədi, özünə gələ bilməsi bir yana qalsın, uğursuzluqlarının, ifşalarının sayı-hesabı olmadı. Belə ki, Ermənistana, avantürist Paşinyana növbəti sarsıdıcı zərbə Valday konfrasından bir müddət sonra Türkmənistanın paytaxtı Aşqabad şəhərində gerçəkləşdirilən MDB dövlət başçılarının növbəti sammitində vuruldu. Yenə də Ermənistan baş nazirinin avantürist çıxışı cavabsız qoyulmadı və Paşinyanın timsalında Ermənistan daha sərt, daha işfaedici şəkildə cavabını aldı. Azərbaycan prezidenti qanlı Njdeyə abidə ucaldan Ermənistanı faşizmə dəstəkdə günahlandıraraq dedi:

*"...Mən sadəcə şərh verməyə məcburam. Belə ki, Ermənistanın baş nazirinin çıxışında söhbət məndən gedib. Halbuki mənim çıxışımda söhbət Ermənistanın baş nazirindən, xüsusən də erməni xalqından getməyib. Hesab edirəm ki, Sovet İttifaqının digər xalqları kimi, bizim ümumi qələbəmizə böyük töhfə verən erməni xalqı, ilk növbədə, özü əvvəlki rəhbərliyin ölkəyə vurduğu bu ləkədən təmizlənməlidir. Əgər baş nazir mənim çıxışıma diqqətlə qulaq asıbsa, onda yəqin ki, o da bunu tutub. Həmçinin, hesab edirəm ki, nasist əlaltıları və cinayətkarları ilə QULAQ-ın və digər düşərgələrin repressiyaya məruz qalmış dustaqlarını müqayisə etmək qətiyyən yolverilməzdir. Mən öz çıxışımı təsadüfən sitatlarla möhkəmləndirmədim. Onları kitabxanada, internetdə tapmaq olar. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin 2019-cu ilin may sitatında və Rusiyanın Müdafiə naziri Şoyqunun redaksiyası altında 12 cildlik nəşrin sitatında kifayət qədər aydın deyilir ki, o, necə bir "xadim" olub. Həmçinin, nə qədər iyrənc olsa da, onun sitatını mən bir daha təkrar edəcəyəm: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur".* Bu, Böyük Vətən müharibəsi illərində deyilib. Buna görə də hesab edirəm ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət, ilk növbədə, bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir. Mənim dövlət başçılarına hörmətsizlik göstərdiyimə gəlincə, düşünürəm ki, bizim iclasımız, yəqin ki, bundan daha absurd tezis eşitməyib...".

Bəli, Azərbaycan prezidenti, necə deyərlər, növbəti sərrast həmləsi ilə Ermənistana, Paşinyan hakimiyyətinə bir daha siyasi-diplomatik zərbəsini vurdu, onun bütün yalanlarını ortaya tökdü, ifşa etdi. Bütün dünya Ermənistanın faşist dövləti olması gerçəkliyi və faktı ilə üz-üzə qaldı. Ancaq ifşa prosesi, sarsıdıcı siyasi-diplomatik zərbələr bununla da bitmədi. Ermənistana növbəti sarsıdıcı zərbə 2020-ci ilin fevralında, 56-cı Münxen Təhlükəsizlik Konfransı zamanı vuruldu. Azərbaycan Prezidenti ilə Ermənistan baş nazirinin debatı zamanı sərrast və arqumentli cavabları ilə dövlət başçısı cənab İlham Əliyev Ermənistanı və onun yeni rəhbərini tam mənasında susdurdu, yerində oturtdu, bir daha Qarabağın Azərbaycana aid olduğunu dünyaya nümayiş etdirdi. Ermənistan və onun rəhbərliyi növbəti siyasi-diplomatik fiaskosunu yaşadı.

**Şuşa rəzaləti...**

**- Çox təəssüflər olsun ki, ancaq bunlar da Ermənistana dərs, ibrəti-aləm olmadı. Keçmiş - qondarma "DQR"-dəki növbəti "seçki şousu"ndan sonra Şuşa ilə bağlı növbəti - təhrikedici təxribat planı işə salındı, bu, azmış kimi, Qarabağdan, aktiv cəbhə bölgəsindən kilometlərcə uzaqda olan Tovuz rayonu ilə sərhəddə qanlı fitnəkarlıq əməlinə əl atıldı…**

- Düz buyurursunuz, istər işğalçı Ermənistan ordusu, istərsə də Paşinyan hakimiyyəti təxtibatçı və fitnəkar addımlarından çəkinmədi. 2020-ci ilin mayında Azərbaycanın dilgər guşəsi və göz bəbəyi olan Şuşada növbəti təxribat baş verdi, qondarma, separatçı, quldur "DQR" rejiminin növbəti seçki şousu nəticəsində "formalaşdırdığı" üzdəniraq "parlament" Şuşaya köçürüldü, orada "açılış" mərasimi keçirildi və bununla bir daha Azərbaycan təxribata çəkilmək istənildi. Amma Azərbaycan dövləti bu dəfə də Ermənistanın təxribatına uymadı, münaqişənin sülh yolu ilə həll olunması istiqamətində səbir, təmkin nümayiş etdirdi. Eyni zamanda, Ermənistana və havadarlarına növbəti xəbərdarlığını etdi, bu kimi təxribatlara dözülməyəcəyini, onlara bir daha layiqli cavab veriləcəyini bütün dünyaya bəyan etdi…

**İyul-Tovuz hadisələri... Azərbaycanın növbəti Zəfəri...**

2020-ci ilin iyul ayının 11-dən 12-nə keçən Qarabağdan xeyli - kilometlərcə uzaqda olan, birbaşa döyüş bölgəsi olmayan, Ermənistanla sərhəddə yerləşən Tovuz rayonu hücuma məruz qaldı. Ermənistan-Azərbaycan sərhəddinin Tovuz istiqamətində Ermənistan ordusunun növbəti qanlı təxribat əməli baş verdi. Budəfəki "hədəf", Ermənistanın niyyətləri daha məkrli və daha təhlükəli idi. Çünki Tovuz rayonu strateji bir rayon olmaqla yanaşı, dünyamiqyaslı mühüm layihələrin, boru kəmərlərinin keçdiyi bir rayon idi. Ermənistan həmin boru xətlərini vurmaqla, onları ələ keçirməklə Azərbaycanı həm dünya birliyinin gözündə nüfuzdan, etibardan salmağı, həm də işğal dairəsini genişləndirməyi, Azərbaycanı təslimçi sülhə razı salmağı hədəfləmişdi. Azərbaycanın təxribata çəkilərək, Ordumuzun Ermənistanla sərhədi keçməsi, Ermənistan ərazilərini vurması və bununla bağlı növbəti ləkələmə, qarayaxma kampaniyasına start verilməsi, eyni zamanda, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) münaqişəyə müdaxilə etməsi hədəf kimi seçilmişdi. Təbii ki, bu dəfə də havadarlarının birbaşa himayədarlığı və təhriki ilə. Əslində Ermənistanın bu addımı atmağa gücü və cəsarəti yox idi, yetməzdi də, o, növbəti dəfə Azərbaycanı öz müstəqil inkişaf yolundan döndərmək, onu vassala, "banan respublikası"na çevirmək istəyən güclərin, çevrələrin birbaşa təlimatı, dirijor çubuğu ilə hərəkər edirdi. Amma nə Ermənistan, nə də onun qanlı havadarları öz hesablarını düzgün aparmışdılar. Onlar çox böyük yanlışlığa yol vermişdilər. Azərbaycanın Aprel döyüşlərində və Cünnüt əməliyyatında nələrə qadir olduğunu axıracan dərk edə bilməmişdilər, yenə də xəyallarında 90-cı illərin zəif, müdafiəsiz və gücsüz Azərbaycanını qurmuşdular. Amma Azərbaycan prezidentinin müdrik və uzaqgörən addımları, eləcə də Azərbaycan Ordusunun gücü, əzmi ilə Ermənistanın və onun havadarlarının bütün hesabları, planları, ssenariləri bir daha yerləbir, alt-üst edildi. Həmçinin, heç bir təhrikedici addımlara getmədi, təxribatlara uymadı. General, Azərbaycan xalqının igid oğlu, sonradan Milli Qəhrəman adına layiq görülən Polad Həşimov və ondan artıq hərbçimizi, zabitimizi, igidimizi Şəhid versək də, onların qanı yerdə qoyulmadı, Ermənistana və onun havadarlarına həm texnika, həm də canlı qüvvə sarıdan daha ağır və sarsıdıcı zərbə vuruldu. Bir daha dünya Azərbaycan dövlətinin, şanlı Azərbaycan Ordusunun gücünü, qüdrətini, döyüş əzmini gördü.

**Polad kimi Polad və Polad oğullar…**

**- Ziyad müəllim, İyul-Tovuz hadisələri zamanı general Polad Həşimov başda olmaqla, igid Azərbaycan oğullarının - peşəkar zabit və hərbçilərimizin Şəhidlik məqamına ucalması Azərbaycan cəmiyyətində düşmənə qəzəb və nifrəti daha da artırdı, eyni zamanda, döyüş əzmini hədsiz dərəcədə yüksəltdi və tarixi Zəfərimizdə onların yeri, rolu müstəsna, əvəzsizdir…**

- Bəli, tamamilə haqlısınız. İyul-Tovuz hadisələri, general Polad Həşimov başda olmaqla, ondan çox hərbçimizin, zabitimizin Şəhadətə, Şəhidlik məqamına ucalması Azərbaycan xalqının düşmənə olan nifrətini, qəzəbini, Qələbə əzmini daha da artırdı. Azərbaycan xalqı bir daha öz gücünə inandı, Qələbənin, Zəfərin, Qarabağın azadlığına gedən yolun heç də uzaq olmadığını bir daha özü üçün yəqinləşdirdi. Bütövlükdə Tovuz hadisələrindən sonra Orduya, dövlətə dəstək aksiyalarının keçirilməsi, Polad Həşimovun ölkənin, demək olar ki, hər bir guşəsində portretlərinin asılması, anadan olduğu Qəbələdə böyük küçələrdən birinə onun adının verilməsi, ölkə prezidentinin Qəbələyə səfəri zamanı generalımızın portreti önündə ehtiramla şəkil çəkdirməsi, xatirəsinin əbədiləşdirilməsi yönündə tapşırıqlar verməsi, bütövlükdə ona sonsuz sevgi və el məhəbbətinin ifadə olunması Azərbaycan xalqının və dövlətinin Qələbənin bir addımlığında olduğunun əyani nümayişi oldu. Azərbaycan xalqı və dövləti Polad Həşimov başda olmaqla, 1988-ci ildən bu yana Vətən torpaqları, Qarabağ uğrunda canını fəda etmiş Oğulların qisasının alındığını və tam mənada alınacağını, qisası qiyamətə qoymacağını Ermənistan daxil, kürreyi-ərzə duyurmuş oldu. Bəli, tarixi Zəfərimizə, Qələbimizə, Qarabağın işğaldan azad olunmasına görə Şəhidlərimizin hər birinə, o cümlədən Polad Həşimov başda olmaqla, iyul şəhidlərinə borcluyuq. Onların hər birinə minnətdarıq və ruhları qarşısında ehtiramla baş əyirik. Baş tacımız, müqəddəs and yerimizdirlər.

Amma düşmən ki, düşmən... Yenə də öz murdar xislətindən əl çəkmədi, öz mahiyyətini, məzmununu dəyişmək istəmədi, dərs, nəticə çıxarmadı və daha böyük xətalara, yanlışlıqlara yol verdi. Aprel döyüşlərindən sonra 2020-ci ilin İyul-Tovuz hadisələri Qarabağın azadlığına gedən yolda növbəti mühüm mərhələ oldu, bizi Qarabağımıza daha da yaxınlaşdırdı…

**Azərbaycana artan dəstək... 27 sentyabr və 44 günlük İkinci Vətən müharibəsi, tarixi Qələbə!**

**- İyul-Tovuz hadisələrindən sonra beynəlxalq aləmdə Azərbaycan, Qarabağ həqiqətləri daha aydın görünməyə başlandı, Azərbaycana dəstək daha da artdı. Yəqin ki, fikirlərimizlə razılaşarsınız?**

- Bəli, Azərbaycana dəstək daha da artdı, Ermənistanın ifşası daha da gücləndi, daha da sürətləndi. Xüsusilə, hər zaman yanımızda olan qardaş və dost Türkiyədən, onun dövlət başçısı cənab Rəcəb Tayyib Ərdoğandan Azərbaycana verilən dəstək daha da genişləndi. Eyni zamanda, hər zaman Azərbaycana dost və qardaş münasibəti ilə fərqlənən Pakistandan, Ukraynadan, Əfqanıstandan və digər dövlətlərdən güclü dəstək gəldi. Ancaq yenə də ən böyük dəstək qeyd etdiyimiz kimi, qardaş və dost Türkiyədən oldu. Bütün müstəvilərdə Azərbaycana dəstək ifadə edildi. Azərbaycan və Türkiyə rəsmilərinin, xüsusilə, iki ölkənin hərbçilərinin qarşılıqlı səfərləri daha da artdı, genişləndi. Azərbaycan və Tükiyə hərbçilərinin növbəti və hərtərəfli təlimlərinə start verildi, Azərbaycanın yalnız və tək olmadığı, buraxılmadığı və buraxılmayacağı dünyaya mesaj edilmiş oldu. Və 2020-ci il sentyabrın 27-si, səhər saatlarında Ermənistanın növbəti təxribatı onun sonunu gətirdi, işğala son qoyulmasını gürətləndirdi və onu gerçəkliyə çevirdi. Bir andaca müsəlləh əsgərə dönən Azərbaycan xalqı 44 günlük savaşla, İkinci Vətən müharibəsi ilə qanlı 32 illik Qarabağ münaqişəsinə son nöqtəsini, Ali Baş Komandanın dediyi kimi, nidasını qoydu! Artıq nə Dağlıq Qarabağ münaqişəsi var, artıq nə təmas-cəbhə xətti var, artıq nə status-kvo var, artıq nə də Dağlıq Qarabağ deyilən coğrafi quruluş var. Ali Baş Komandanın dediyi kimi, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Və hər zaman, dəfələrlə deyirdik ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə bir gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma Ali Baş Komandanın da bəyan etdiyi kimi, hər kəs bilməlidir ki, əsas missiyanı onun prezidentliyi dövründə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi. Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bəli, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır və Qarabağ Azərbaycanındır!

Qarabağın işğalına son qoyulmasından sonra da Qələbə üzərinə Qələbə, Zəfər üzərinə Zəfər gəlir. Hər gün növbəti Tarix yazılır, hər gün düşmənə növbəti Dərs verilir. Artıq son 4 ayda Qarabağa, işğaldan azad olunmuş ərazilərə Ali Baş Komandan və onun sadiq, ən sədaqətli silahdaşı Mehriban xanım Əliyevanın birlikdə 5 səfəri gerçəkləşdirilib. Beş səfər, beş Zəfər, beş Qələbə! Bəli, artıq ötən müddət ərzində Qarabağın bərpası, dirçəldilməsi, cənnət-məkana çevrilməsi ilə bağlı böyük işlərə start verilib. Qarşıda da daha böyük hədəflərimiz, işlərimiz var və onları da birlikdə bacaracağıq, onları da birlikdə bir-bir hədəfinə çatdıracağıq!

**Müsahibəni apardı:**
**Kamil HƏMZƏOĞLU**

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN İQTİSADİ FİKİRLƏRİ HAQQINDA

Mirzə Fətəli Axundzadə 1812-ci ildə Şəki (keçmiş Nuxa) şəhərində anadan olmuşdur. O, Yaxın Şərqdə və Türk dünyasında dramaturgiyanın və yeni tipli nəsrin banisi, əlifba islahatçısı, Azərbaycan ədəbiyyatında realizm prinsiplərinin və maarifçi-demokratik ideologiyanın əsasını qoymuş, görkəmli liberalist və ictimai-siyasi xadim kimi tanınımışdır. Ensiklopedik biliyə və fitri istedada malik olan M.F.Axundzadənin öz həyat və yaradıcılığı ilə xalqımızın ictimai-siyasi şüurunun bütün sahələri, eləcə də iqtisadi şüurunun formalaşmasında əvəzsiz xidmətləri olmuşdur.

O dövrdəki Azərbaycanla bağlı ilk olaraq, onu qeyd etməliyik ki, artıq M.F.Axundzadənin bütöv olan vətəni Azərbaycanın şimal ərazisi Rusiya tərəfin-dən işğal olunmaqla parçalanmağa doğru gedirdi. Təbii ki, bu proses böyük bir millətin Arazdan şimalda və cənubda qalan hissələrinin tədricən, fərqli sosial-iqti-sadi və mədəni inkişaf yoluna qədəm qoyması prosesini şərtləndirdi. Belə ki, hər iki Azərbaycan klassik feodal üsul-idarəçiliyinin və feodal təsərrüfatının hakim olduğu həmin o dövrün həm ictimai-siyasi, həm də iqtisadi baxımdan geri qalmış məmləkətləri sırasında idi. Lakin buna baxmayaraq, gənc Mirzə Fətəli bir neçə xarici dili, xüsusən rus dilini mükəmməl bildiyinə görə ölkənin Şimali Rusiya və rus dili xətti ilə gələn Qərb üsul-idarəsi, fikir və düşüncə axınlarından, mütəmadi olaraq, xəbər tuta bilirdi. Bəs, həmin dövrdə ictimai-siyasi və iqtisadi baxımdan dünyada hansı proseslər gedirdi? Təbii ki, Qərbi Avropa istisna olmaqla, dünyanın böyük bir hissəsinin sosial-iqtisadi durumu Azərbaycandan o qədər də fərqlənmirdi. Qərbi Avropa isə elə həmin dövrdə də həm zehni-intellektual, həm də sosial-iqtisadi həyat səviyyəsinə görə fövqəladə inkişaf trendinə daxil olmuşdu. **Belə ki, həmin dövrdə "Ronesans hərəkatı", "Sənaye inqilabı", "Maarifçilik cərəyanları", "Fransa inqilabı" və s. kimi hadisə və proseslərin nəticəsi olaraq, artıq Qərbi Avropada sxolastik düşüncə tərzindən elmi-realist düşüncə tərzinə, aqrar-feodal cəmiyyətindən kapitalist-sənaye cəmiyyətinə və nəhayət avtoritar idarəetmə sistemindən demokratik idarəetmə sisteminə keçid istiqamətində proseslər sürətlənmişdi.** Heç şübhəsiz ki, bütün bu proseslər öz zəmanəsinin böyük ziyalısı kimi M.F.Axundzadənin ictimi-siyasi və xüsusilə də iqtisadi düşüncə tərzinə və ədəbi yaradıcılığına müsbət təsir göstərməyə bilməzdi.

**Məlum olduğu kimi, 1776-cı ildə ingilis iqtisadçısı Adam Smitin "Xalqların sərvəti" adlı əsərini nəşr etdirməsi və bu əsrin dəsti xəttini davam etdirən digər əsərlərin ortaya çıxması artıq Qərbi Avropada yeni iqtisadi-ictimai formasiya kimi, kapitalizmin liberal dəyərlərə əsaslanan elmi-nəzəri bazasının da forma-laşdırılması prosesinin başlanğıcını qoymuşdu. Biz bu xəttin Mirzə Fətəlinin əsərlərində yer alan iqtisadi fikirlərində də özünü açıq şəkildə büruzə verdiyinin şahidi oluruq.**

M.F.Axundzadənin iqtisadi fikirlərini kompleks təhlil etdikdə həm də onu gö-rürük ki, dövlət idarəçiliyinin məzmun və formaca dəyişikliklərə uğra-ması məsələləri onun yaradıcılığının əsas leytmotivini təşkil edir. O dövrün ictimai-siyasi və iqtisadi həyatının bu sahələrində dərin islahatların aparılması zəruriliyini dərk edən Mirzə Fətəlinin bu istiqamətdəki fikirlərinin həmin dövr üçün əsas tənqid hədəflərindən biri də o dövrdə mövcud olan avtoritar və totalitar feodal üsul-idarəsi idi. Bu isə müəllifdən çox böyük cəsarət və risk tələb edirdi. Bir maarifçi və liberalist kimi M.F.Axundzadə öz əsərlərində feodal üsul-idarəsi və qayda-qanunlarına, zülmə, özbaşınalığa, ədalətsizlik və qanunsuzluğa qarşı çıxmış, nəinki təkcə öz doğma Azərbaycan xalqının, hətta ümumən Şərq xalqlarının milli intibahı, siyasi, iqtisadi və mədəni tərəqqisi, azad və xoşbəxt həyata qovuşmaları naminə, bu problemlərin həllinin vacibliyini göstərmişdir. O, bir tərəfdən, alovlu bir vətənsevər vətəndaş kimi məmləkətinin, millətinin gerili-yinə acıyır, digər tərəfdən isə, bütün müsəlman millətlərinin bu baxımdan çağdaş Qərbi Avropa tərəqqi karvanına qoşulmalarının ən optimal yolları haqqında düşünürdü.

M.F.Axundzadə cəmiyyətin idarə edilməsi sahəsində, müasir anlamda desək, demokratik və hüquqi dövlət arzusunda idi. Asiya xalqlarını "nadanlıq və qəflət yuxusundan oyatmaq" və iqtisadi-mədəni tərəqqi yoluna çıxartmaq məqsədilə o, 1863-1865-ci illərdə məşhur "Kəmalüddövlə məktubları" adlı fəlsəfi əsərini yazmışdır. 1860-cı illərin ortalarından başlayaraq, rus inqilabçı demokratlarının və Qərbi Avropa maarifçilərinin qabaqcıl ideyalarının qüvvətli təsiri altında dahi mütəfəkkir zəhmətkeş kütlələr üçün xalis maarifpərvər və müdrik hökmdarın insanpərvərliyinə inamı haqqında özünün əvvəlki "ideyasını" rədd edir və onun bu ideyaları getdikcə daha prinsipial xarakter daşımağa başlayır. Belə ki, əgər müəllif "Aldanmış kəvakib" əsərinin meydana çıxdığı dövrdə, zülm edənlərlə zülm olunanlar arasında "barışığa" və "sazişə" gəlməyi mümkün hesab edirdisə, "Üç məktub" əsərində o, artıq bu məsələyə münasibətini xeyli kəskinləşdirməklə daha müdrik və düzgün mövqe tutmuşdur. O, 1871-ci ildə Mirzə Yusif Xana məktubunda yazırdı: **"Zülmü yox etmək üçün iki vasitə vardır: "ya zülmkar zülm etməkdən əl çəkməli," və yaxud da, "məzlumlar zülmə dözməyərək, özləri onun özünü məhv etməlidirlər".** Ağıl söyləyir ki, zülmü yox etmək üçün başqa yollar yoxdur. Min illərlə mütəfəkkirlər, alimlər, şairlər zülmü və ədalətsizliyi yox etmək üçün zülmkarlara nəsihət və məsləhət verməyi kifayət hesab edirdilər. Lakin təcrübə göstərdi ki, belə cəhdlər faydasızdır və bu yolla yer üzündə zülmü məhv etmək olmaz. Deməli, zülmü yox etmək üçün "zalıma" nəsihət vermək lazım deyil, əksinə "məzluma" demək lazımdır ki, "say", "qüvvə" və "bacarıq"da zülmkardan qat-qat üstün olduğun halda, nə üçün sən bu zülmə, acizanə surətdə, dözürsən? Oyan və zülmü alt-üst et".

M.F.Axundzadə o dövrün dövlət idarəçiliyini yalnız ümumi şəkildə deyil, eyni zamanda, konkret istiqamətlər üzrə də cəsarətlə tənqid edirdi. Hətta Cə-lil Məmmədquluzadə kimi cəsarətli söz sahibi olan bir yazıçı belə, bu haqda deyib ki, **"Axundzadənin əsərlərində toxunduğu bütün məsələlərdən qan iyi gəlirdi". O, çar üsul-idarəsinin yüksək rütbəli məmuru olmasına baxmayaraq, çar hakim-lərinin nöqsanlarına da göz yummamış, onların bürokratizmini, rüşvətxorluğunu və ədalətsizliyini açıq şəkildə tənqid etmişdir. Məsələn, "Hacı Qara" əsərində qaçaqmal keçirmək barədə bəylərlə söhbət apararkən, Hacı Qara çar bürokratik üsul-idarəsi, yerli çar məmurları haqqında deyirdi: "Rus adı gələndə (burada çar məmurları və idarəçiliyi nəzərdə tutulur) bağrım yarılır. Onların qılınc-tüfəngi məni o qədər qorxutmur nəinki, silisti, apar-gətiri canıma vəlvələ salır".**

Əslində müəllif burada digər bir həqiqətin də üstünü açırdı: **"Qaçaqmalçılıq daha çox gömrükxanalardakı çox ağır, həm də bürokratik mexanizmdən və rüşvətxorluqdan doğur".**

"Aldanmış kəvakib" əsərində də müəllif heç nədən çəkinmədən göstərirdi ki, "bilavasitə şahın, eləcə də onun nazirlərinin təqsiri üzündən İran dövləti və xal-qı dəhşətli bir vəziyyətə düşmüşdür: ticarət və əkinçilik süqut etmiş, şəhər və kəndlər viran qalmış, körpülər və karvansaralar uçulub tökülmüş, ölkə ağır iqtisadi-siyasi böhrana uğramışdır. Hər yerdə zalım, nadan, ədalətsiz, rüşvətxor dövlət məmurları və feodal hakimləri xalqa olmazın zülm edir, onu soyub-talayır, başına min bir oyun açırlar".

M.F.Axundzadə nəinki o dövrün Şərq idarəetmə sistemini tənqid etmiş, eyni zamanda, özünün "ideal dövlət və dövlət başçısı" modelini də təqdim etmiş-dir. "Aldanmış kəvakib" povestindəki Yusif Sərrac obrazı məhz dediklərimi-zə bariz nümunədir.

Müəllif bu obrazla öz mütərəqqi görüşlərini nümayiş etdirmiş, İranı tərəqqi yoluna yönəltmək, xalqın güzəranını yaxşılaşdırmaq üçün konkret təkliflər də irəli sürmüşdür. Yusif Sərrac məhz elmi, əqli, qabaqcıl mədəniyyəti ilə seçilən, iqtisadi-mədəni tərəqqini təmsil edən, maarifçi bir hökmdar surəti idi. Bəs, Yusif Sərracın idarəçiliyi hansı prinsiplərə əsaslanırdı? O, ilk olaraq öz ətrafına bir qrup həqiqətpərəst, ağıllı, savadlı, sağlam düşüncəli adamları toplayıb, onlara söyləyir ki, kəndxudadan tutmuş padşahadək bütün hakimlər "əhli-zələmə" və yolkəsəndirlər. Onlar ölkə və millətə heç bir fayda vermir, həmişə öz şəxsi mənafe-ləri haqqında düşünür, biçarə xalqı müxtəlif cərimə və vergilər vasitəsi ilə soyub talayır, öz iş və fəaliyyətlərində heç bir qanun və qaydaya riayət etmirlər. Bir təsadüf nəticəsində İran şahı olan Yusif Sərrac ölkədə geniş ictimai-siyasi və iqtisadi islahat yönümlü tədbirlər həyata keçirməyə başlayır. Onun islahatları nəticəsində İranın ictimai-siyasi həyatında böyük dəyişikliklər baş verir. Bir sözlə, həmin dövr ərzində "İran üçün əyyami-firuzluq, "əyyami-səadət" və "iqbal" baş verir. Yusif şahın fəaliyyətinə nəzər saldıqda, açıq şəkildə görünür ki, onun apardığı bu islahatlar obyektiv olaraq, İranın orta əsr feodal ziddiyyətləri və ictimai yaralardan xilas edilib, bunun əvəzində kapitalist inkişaf yoluna düşməsi ilə nəticələnir.

**(ardı var)**

**HƏSƏN İSRAFİLOV,**
**iqtisad elmləri doktoru,**
**Azərbaycan Respublikasının**
**"Əməkdar müəllimi",**
**Kooperasiyanın İnkişafına**
**Dəstək İctimai Birliyinin sədri**

# Azərbaycanın xarici ticarət dövriyyəsi 4,5 milyard dollar olub

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, bu ilin yanvar-fevral aylarında xarici ticarət dövriyyəsi 4 milyard 515 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 2 milyard 903 milyon dollar, idxalın dəyəri 1 milyard 612 milyon dollar təşkil edib, nəticədə 1 milyard 291 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, ötən ilin eyni ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 7,5 faiz, real ifadədə 17,1 faiz, o cümlədən idxal 28,3 faiz, ixrac isə 10,6 faiz azalıb. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 90,9 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Hindistan, Gürcüstan, İspaniya, Almaniya, Ukrayna, Portuqaliya, Birləşmiş Krallıq, ABŞ, İran, Xorvatiya, Belarus, İsveçrə, Avstraliya, İsrail və Rumıniya ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb. Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 15,1 faizi Rusiyanın, 14,8 faizi Türkiyənin, 12,6 faizi Çinin, 8,8 faizi Almaniyanın, 5,2 faizi ABŞ-ın, 3,9 faizi İranın, hər biri 3,8 faiz olmaqla Birləşmiş Krallıq və Ukraynanın, 3,1 faizi İtaliyanın, 2 faizi Norveçin, 1,9 faizi Koreyanın, 1,6 faizi Avstraliyanın, 1,5 faizi Polşanın, hər biri 1,4 faiz olmaqla Hindistan və Yaponiyanın, 1,3 faizi Fransanın, hər biri 1,2 faiz olmaqla Niderland və Braziliyanın, hər biri 1 faiz olmaqla Vyetnam və Belarusun, 13,4 faizi isə digər ölkələrin payına düşüb.

İdxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, kimya sənayesi məhsullarının, nəqliyyat vasitələrinin, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, plastik kütlə və ondan hazırlanan məmulatların, toxuculuq materialları və məmulatlarının dəyəri üstünlük təşkil edib. İdxalın 66,6 faizini avtomobil, 15,9 faizini dəmir yolu, 12,2 faizini hava, 4,8 faizini dəniz nəqliyyatı ilə gətirilmiş, 0,5 faizini isə boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş məhsulların dəyəri təşkil edib.

İxracın 37,6 faizini İtaliyaya, 10,9 faizini Türkiyəyə, hər biri 7,8 faiz olmaqla Hindistan və Gürcüstana, 6,3 faizini İspaniyaya, 4,4 faizini Portuqaliyaya, 4,2 faizini Ukraynaya, 4,1 faizini Çinə, 3,2 faizini Rusiyaya, 2,2 faizini Xorvatiyaya, 1,6 faizini Birləşmiş Krallığa, 1,5 faizini Almaniyaya, hər biri 1,4 faiz olmaqla İsrail və Belarusa, 1,3 faizini İsveçrəyə, 1,2 faizini Rumıniyaya, 0,8 faizini Avstraliyaya, hər biri 0,5 faiz olmaqla Liviya və ABŞ-a, 1,3 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib. İki ayda ixracın 87,1 faizini boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş, 8,1 faizini avtomobil, 3,2 faizini dəmir yolu, 1,4 faizini hava, 0,2 faizini dəniz nəqliyyatı ilə göndərilmiş məhsulların dəyəri olub.

İxracın strukturunda xam neft, təbii qaz, neft-qaz məhsulları, meyvə və tərəvəzlər, plastik kütlə və ondan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, alüminium və ondan hazırlanan məmulatlar, qara metallar və onlardan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, şəkər, bitki yağları, alkoqollu və alkoqolsuz içkilərin payı üstünlük təşkil edib.

# İcmal büdcəsində birinci rübdə 1 mlrd. manat qalıq (profisit) yaranıb

2021-ci ilin birinci rübündə Azərbaycan Respublikasının dövlət icmal büdcənin gəlirləri 6968,8 mln. manat təşkil edib.

Bu barədə Maliyyə Nazirliyinin 2021-ci ilin 1-ci rübündə Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasına (operativ) dair məlumatında qeyd edilir. Bu da 2020-ci ilin eyni dövrü ilə müqayisədə 1458,6 mln. manat və ya 26,5 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 5921,3 mln. manat icra olunmuşdur ki, bu da 2020-ci ilin eyni dövrü ilə müqayisədə 204,4 mln. manat və ya 3,6 faiz çoxdur.

İcmal büdcədə 1047,5 mln. manat büdcə artıqlığı (profisit) yaranıb.

# Aktiv vergi ödəyicilərinin sayı 2 dəfədən çox artıb

2021-ci ilin aprel ayının 1-nə respublika üzrə uçotda olan 1 240 652 vergi ödəyicisinin 87,7%-i fiziki şəxs, 12,3%-i hüquqi şəxs və digər təşkilatlar olub.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib.

Belə ki, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 167 992 vahid və ya 115,7% artıb ki, bunun da 94,6%-i fiziki şəxslərin, 5,4%-i hüquqi şəxslərin hesabına baş verib. Hüquqi şəxs kimi uçotda olan vergi ödəyicilərinin sayının artması əsasən kommersiya qurumları hesabına baş verib.

2020-ci ilin mart ayından başlamaqla müşahidə olunmuş ardıcıl 12 aylıq azalma dövründən sonra ilk dəfə olaraq cari ilin mart ayında qeydiyyatın sayında artım müşahidə edilib.

Hesabat dövründə fəaliyyəti aktiv olan hüquqi şəxslərin 86,4%-i kommersiya qurumlarıdır. Ümumiyyətlə, 136 997 kommersiya qurumundan 58,5 faizinin vəziyyəti aktiv olub. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə aktiv kommersiya qurumlarının sayı 13,9 faiz artıb. Bu zaman kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 16% artıb.

2021-ci ilin 1 aprel tarixinə 272 publik hüquqi şəxs, 16.066 xarici investisiyalı kommersiya hüquqi şəxs dövlət qeydiyyatından keçib.

# Fəxrəddin Cavadov - 70

***Tibb elmləri doktoru Fəxrəddin Gülmirzə oğlu Cavadovun 70 illik yubileyinə həsr olunmuş "Orqan bağışı problemi və transplantasiya" mövzusunda Elmi Konfrans keçirilib.***

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı ilə 20 aprel 2021-ci il tarixində Tibb elmləri doktoru Fəxrəddin Gülmirzə oğlu Cavadovun 70 illik yubileyinə həsr olunmuş "Orqan bağışı problemi və transplantasiya" mövzusunda Elmi Konfrans keçirilib.

Açılış nitqi ilə çıxış edən Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov ilk növbədə konfrans iştirakçılarını salamlayıb və konfransın transplantalogiya sahəsində praktik nəticələrin əldə edilməsində öz töhfəsini verəcəyinə inandığını qeyd edib. Ölkəmizdə transplantologiya sahəsində olan inkişafın nümunəsi kimi Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin fəaliyyəti və burada icra edilən uğurlu transplantaloji əməliyyatlar barədə məlumat verən Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi çıxışı zamanı həmçinin Tibb elmləri doktoru Fəxrəddin Cavadovun səhiyyə sahəsində olan unudulmaz fəaliyyətinə də toxunub. Orqan bağışı məsələsinin həll yolu tapmasında cəmiyyətin bütün təbəqələrindən olan insanların iştirakının vacib olduğunu qeyd edən Ceyhun Məmmədov çıxışının sonunda konfransın işinə uğurlar arzu edib.

Onlayn Konfransın açılış mərasimində həmçinin Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan Nümayəndəliyinin rəhbəri Hande Harmancı və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov da çıxış ediblər.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov çıxışı zamanı konfransın aktual problemə həsr olunduğunu və ölkəmizdə orqan nəqlinə olan ehtiyacın ödənilmədiyini bildirib. Keçən il orqan transplantasiyası üzrə qəbul edilmiş və ilin sonunda prezident tərəfindən təsdiq edilmiş qanun layihəsi barədə məlumat verən Əhliman Əmiraslanov qanunda bütün aspektlərin, o cümlədən meyiddən orqan nəqli, donor bankının yaradılması, orqan bağışına hazırlanma prosesi, xüsusi transplantasiya klinikalarının açılması kimi məsələlərin də öz əksini tapdığını qeyd edib. Hal-hazırda bu qanunun həyata keçirilməsi üçün icra mexanizmlərinin hazırlanmasının, təbliğat işlərinin aparılmasının qarşıda duran əsas vəzifələr olduğunu vurğulayan Milli Məclisin Səhiyyə Komitəsinin sədri sonda konfrans iştirakçılarına uğurlar arzulayıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan Nümayəndəliyinin rəhbəri Hande Harmancı 1991-ci ildə ÜST tərəfindən Transplantasiya üzrə Rəhbər Prinsiplərin qəbul edildiyini




və bu sənədin 2010-cu ildə yeniləndiyini qeyd edib. Ayrı-ayrı ölkələr arasında transplantasiya sahəsində, o cümlədən meyiddən orqan köçürülməsi sahəsində fərqliliklər mövcud olduğunu bildirən Hande Harmancı bu fərqliliklərin arxasında sosial, mədəni, dini səbəblərin dayandığını, lakin əsas faktorların səhiyyə qurumlarına olan etimadın, güvənin təmin edilməsi, əhali arasında təbliğatın aparılması olduğunu vurğulayıb.

Konfransın açılış hissəsində çıxış edən Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin rəisi və Konfransın sədri Dr.Rəşad Mahmudov ilk növbədə mövzu ilə əlaqəli fikirlərini bölüşüb, Tibb elmləri doktoru Fəxrəddin Cavadovun bu sahədəki mühüm addımları barədə məlumat verib və "Zəif nöqtəmiz haradadır? Problemə tibbi, hüquqi, etik, iqtisadi və sosial baxış" mövzusunda məruzə ilə çıxış edib.

Eyni zamanda, konfransın gedişində Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin rəisi Dr.Mircəlal Kazımi "Ölkəmizdə orqan transplantasiyasında 10 illik təcrübə", Türkiyənin ilk orqan nəqli koordinatoru Dr.Ata Bozoklar "Orqan və toxuma transplantasiyası işinin inkişafında orqan bağışı və mərkəzləşdirilmiş koordinasiya xidmətinin əhəmiyyəti. Bu sahədə Türkiyə təcrübəsi", Mərkəzi Neftçilər Xəstəxanasının Anesteziologiya və Reanimasiya şöbəsinin müdiri Dr.Qulam Rüstəmzadə "Beyin ölümü diaqnozu kriteriyaları: diaqnoz necə və kim tərəfindən qoyulmalıdır?", Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov "Orqan bağışı: psixoloji faktorlar; problemlər, perspektivlər" mövzuları üzrə təqdimatlarla çıxışlar ediblər.

Konfrans zamanı Tibb elmləri doktoru Fəxrəddin Cavadovun oğlu Gülmirzə Cavadov da çıxış edərək, təşkilati komandaya təşəkkürünü bildirib və transplantalogiya sahəsi üzrə problemlərin həlli istiqamətində çalışan hərkəsə uğurlar arzulayıb.

Onlayn olaraq 200-dən çox dinləyicinin iştirak etdiyi konfransda sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "Azercell Telekom" MMC-yə yeni prezident təyin olunub

Zərinə Zeynalova "Azercell Telekom" MMC-nin prezidenti vəzifəsinə təyin edilib.

Zərinə Zeynalova Birləşmiş Krallığın Nottingem Trent Universitetinin İnsan Resurslarının İdarəedilməsi və İnkişafı üzrə diplomuna malikdir, ABŞ-ın Texas A&M Universitetinin İcraedici Rəhbər üzrə İnkişaf Proqramının məzunudur. O, İnsan Resurslarının İdarəedilməsi və İnkişafı üzrə Akkreditə Olunmuş İnstitutun (CIPD) üzvüdür. Azərbaycan Tibb Universitetinin bakalavr pilləsi üzrə məzunudur.

Z.Zeynalova dünyanın müxtəlif coğrafi bölgələrində 25 ildən artıq idarəetmə və təşkilati inkişaf üzrə peşəkar təcrübəyə malikdir. O, 20 il müddətində BP şirkətinin Azərbaycan, Birləşmiş Krallıq və ABŞ ofislərində müxtəlif rəhbər vəzifələrdə fəaliyyət göstərib. Həmçinin "PricewaterhouseCoopers" (PwC) və "Pasha Construction Group" şirkətlərində rəhbər vəzifələrdə işləyib.

Qeyd edək ki, "Azercell Telekom" MMC-nin öncəki rəhbəri Vahid Mürsəliyev müqavilə müddəti bitdiyi üçün tutduğu vəzifədən ayrılıb.

Lider mobil operatorun yeni prezidentinin əsas prioriteti Azercell-in kommunikasiya üzrə fəaliyyətinin inkişafı ilə yanaşı, Azərbaycanda rəqəmsal transformasiyada qabaqcıl mövqeyini təmin etmək olacaq.

# "Bakcell"in 4G şəbəkəsinə keç və 5 GB internet hədiyyə al

"Bakcell" şirkəti özünün 4G/LTE şəbəkəsinə keçmək istəyən abunəçilər üçün xüsusi kampaniya elan edib. Belə ki, 3G SİM-kartlarından istifadə edən abunəçilər "Bakcell"in istənilən müştəri xidməti mərkəzi, rəsmi və ya diler mağazasına yaxınlaşmaqla pulsuz 4G SİM kartı və 5 GB həcmində internet trafiki hədiyə alacaqlar.

"Bakcell"in 4G şəbəkəsinə keçməklə abunəçilər ölkənin ən sürətli mobil şəbəkəsindən yararlanacaq və qarşıdan gələn Novruz bayramı günlərində yüksək sürətli "Bakcell" internetindən pulsuz faydalanacaqlar. "Bakcell"in 4G xidməti gündəlik mobil internet istifadəsi üçün daha yüksək sürəti təmin edir. 4G əsasən daha sürətli, rahat və sabit texnologiya deməkdir.

"Bakcell" şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində "Bakcell" abunəçiləri 4K kontentini izləmək və yükləmək, onlayn təhsil,

konfrans və əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video strimlərini izləmək və yüksək sürətli internet tələb edən digər xidmətlərdən istifadə etmək imkanına malikdirlər.

Dünyaca məşhur "Ookla" şirkəti üç dəfə ardıcıl olaraq "Bakcell" şəbəkəsini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb.


## "Amrah Sığorta" ASC-nin Səhmdarlarının Ümumi Yığıncağı keçiriləcək

19 aprel 2021-ci il tarixdə ləğv prosesində olan "Amrah Sığorta" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı təxirə salınaraq, 27 may 2021-ci il saat 15:00-da keçiriləcəkdir . Yığıncaq Bakı şəhəri, Nərimanov rayonu, R.Muxtarov küçəsi 38 ünvanında baş tutacaq.

Yığıncaqda ləğv prosesində olan "Amrah Sığorta" ASC-nin ləğvetmə prosesinin gedişatı haqqında məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur.


## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Təmir-Tikinti şöbəsinin sektor müdiri Adil Qaibova bacısı

**İRADƏ XANIM QAİBOVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mais Bağırov Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Təmir-Tikinti şöbəsinin sektor müdiri Adil Qaibova bacısı

**İRADƏ XANIM QAİBOVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**